# Sumqayıt hadisələri 1988

## *Dövri mətbuat 2020-ci il*

## M ü n d ə r i c a t

- **Sumqayıt və Bakı hadisələri Azərbaycan xalqına qarşı mərkəzin və ekstremist erməni dairələrinin törətdiyi təxribat idi ........ 2**
- **Əvəz Mahmud Lələdağ. Ümumbəşəri Bəla ........ 4**
- **Əli Nəcəfxanlı. Sumqayıt hadisələri: haqq nazilsə də, üzülmədi ........ 10**
- **Yasəmən Musayeva. Sumqayıt ermənilәri şəhərdə iğtişaşın baş verəcəyini əvvəlcədən bilirdilər........ 14**
- **Akif Əliyev. 1988-ci ili xatırlayarkən ........ 17**
- **Əli Nəcəfxanlı. Sumqayıt hadisələri şahidlərin gözü ilə ........ 19**
- **Elçin Əhmədov. Sumqayıt hadisələri SSRİ DTK-nın hazırladığı planın tərkib hissəsi idi ........ 23**
- **Cavid. Sumqayıt hadisələri: Ermənilərin törətdikləri təxribatdan 32 il ötür ........ 26**
- **Əli nəcəfxanlı. Sumqayıt hadisələri: törətdikləri vəhşiliklər cinayətkarları addım-addım izləyir ........ 29**
- **A. Miriyev.Azərbaycan BMT-yə Sumqayıt hadisələri ilə bağlı sənəd təqdim edib ........ 33**
- **Vahid Ömərov. Sumqayıt hadisəsi erməni təcavüzkarlarına bəraət qazandırma vasitəsi idi ........ 35**

**"Sumqayıt və Bakı hadisələri Azərbaycan xalqına qarşı mərkəzin və ekstremist erməni dairələrinin törətdiyi təxribat idi"**

***Beşinci çağırış Milli Məclisin deputatı, tarixçi alim Musa Qasımlı bildirib ki, əslində, Ermənistan rəhbərliyinə geniş anti-Azərbaycan kampaniyasına başlamaq və Azərbaycana qarşı təcavüzkarlıq siyasətinə bəraət qazandırmaq üçün vasitə kimi lazım olan Sumqayıt hadisəsi əvvəlcədən müəyyən erməni qrupları tərəfindən hazırlanmışdı.***

Musa Qasımlı qeyd edib ki, 1988-ci il fevralın 26-28-də Sumqayıtda baş verən hadisələrin istintaq materiallarından hücum edənlərin artıq qabaqcadan müəyyənləşdirilmiş mənzilləri seçdikləri aydın olur.Öldürülən ermənilər erməni təşkilatlarına pul ödəməyən şəxslər idi: "Onların siyahılarının əvvəlcədən hazırlandığını deyən tarixçi alim bildirib ki, hadisələrdə şəhərin qeyri-yerli əhalisindən ibarət olan cinayətkar elementlər iştirak etmişdilər. İğtişaşlar nəticəsində 32 nəfər həlak olub. Onların 24-ü erməni, 5-i azərbaycanlı, qalanları isə digər xalqların nümayəndələri idi. Bununla belə, Sumqayıt hadisələrində bir çox azərbaycanlı erməniləri mənzillərində gizlədərək ölümdən xilas etdi. Hadisənin təşkilatçılarından biri ermənilərin qətli və erməni qadınlarının zorlanmasında bilavasitə iştirak edən milliyyətcə erməni olan Eduard Qriqoryan idi. O, həmin iğtişaşlara qədər cinayət əməlləri üstündə bir neçə dəfə həbsxanada yatmışdı".

M.Qasımlı əlavə edib ki, Sumqayıt hadisəsi Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosunun 1988-ci il 29 fevral tarixli iclasında müzakirə edilib: "İclasa sədrlik edən M.Qorbaçov Yerevanda vərəqələrin yayıldığını diqqətə çatdırıb. Həmin vərəqələrdə ermənilərdən mitinq etməyi dayandırmaq, silaha sarılmaq və türklərə qarşı hücuma keçmək çağırışları edilirdi. Yerevanda ordu qərargahına atəş açılmış, güllə qərargah rəisinin otağının pəncərəsinə dəymişdi. M.Qorbaçov onları ekstremist adlandıraraq bildirdi ki, mitinqlərdə bütün çıxışlarda əsas mövzu Qarabağ və onun Ermənistana birləşdirilməsidir. Dağlıq Qarabağ münaqişəsinin də kökləri etnik amilin üstünlüyündə deyil, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarında idi. Uzun illər boyu anti-Azərbaycan, anti-türk xətti Ermənistanda rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. M.Qorbaçovun hakimiyyətə gəlməsindən sonra bu proseslər daha da güclənmişdi".

M.Qasımlı təəssüflə deyib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının formalaşmasında, milli münasibətlərin qızışdırılmasında erməni din xadimləri xüsusi rol oynayıblar. "Mərkəz, xüsusən Sovet İttifaqı KP MK katibi A.Yakovlev və M.Qorbaçovun həyat yoldaşı Raisa Qorbaçova daim istintaq orqanlarına təzyiqlər ediblər. M.Qorbaçov vəziyyətin kəskinləşməsini Azərbaycan hakimiyyətinin fəaliyyəti, guya ermənilərin sıxışdırılması ilə əlaqələndirdi. Tarixi gerçəkliyi əks etdirməyən belə yanaşma M.Qorbaçovun Azərbaycan xalqına düşmən münasibətinin göstəricisi idi".

Tarixçi alim vurğulayıb ki, Sumqayıt hadisəsi, onun ardınca 1990-cı il yanvarın 20-də törədilən qırğın Azərbaycan xalqına qarşı mərkəzin və erməni dairələrinin törətdiyi bir təxribat idi: "Bu hadisə Azərbaycana qarşı təzyiq üçün edilmişdi. Sumqayıt hadisəsi xalqımızın üstünə atılmış bir ləkədir. Ondan alınan ibrət dərsləri çoxdur. Ərazilərimizin işğal altında qaldığı, qaçqın və məcburi köçkünlərimizin olduğu bir şəraitdə xalqımız dövlətimizin ətrafında sıx birləşməli, kifayət qədər ayıq olmalı, ölkəmizdə sabitliyi qorumalı, səylərini quruculuğa yönəltməli, dövlətimizin daha da güclü olmasına çalışmalı, yeganə problemimiz olan Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həllinə var qüvvəsini sərf etməlidir".

M.Qasımlı, həmçinin əlavə edib ki, 1990-cı il yanvarın 20-nə keçən gecə Sovet İttifaqının rəhbəri Mixail Qorbaçovun göstərişi ilə ordu hissələrinin Bakıda dinc əhaliyə qarşı silah işlətməsi, insanlara divan tutması SSRİ-nin öz vətəndaşlarına qarşı cinayəti idi: "1990-cı ilin yanvarında Bakıda törədilən hadisələrə dünyanın müxtəlif ölkələrinin rəsmi hakimiyyət orqanları, təəssüf ki, sakit yanaşdılar. Hətta bu məsələdə Qorbaçovu müdafiə etdilər. Ona görə müdafiə etdilər ki, bir sıra böyük ölkələrin rəhbərləri SSRİ-nin dağılmasında maraqlı idilər. SSRİ-ni ayaq üstə saxlayan isə ordu, təhlükəsizlik orqanları və Kommunist Partiyası idi. 20 Yanvar hadisələrinin törədilməsində də elə bu üç qurumun – ordu, təhlükəsizlik orqanları və Kommunist Partiyasının günahkar olduğu üzə çıxdı. Və təbii ki, onlar gözdən düşdülər".

Deputat hesab edir ki, bu hadisə ilə bağlı məsələlərin araşdırılmasına və dərindən öyrənilməsinə ehtiyac var: "Bundan ötrü məsələnin daxili tərəfləri öyrənilməlidir. Məsələn, o zaman Azərbaycan rəhbərliyində baş vermiş ixtilaflar, hakimiyyətlə xalq arasında yaranmış uçurum, xalq hərəkatının

rəhbərləri arasındakı münasibətlər, psixoloji amil təhlil olunmalıdır. Bundan başqa, sovet rəhbərliyi daxilində baş verən hadisələrə münasibət öyrənilməlidir. Eyni zamanda, beynəlxalq amil və xarici təsirlər də araşdırılmalıdır. Fikrimcə, 20 Yanvardan uzaqlaşdıqca, onun mahiyyətini daha dərindən öyrənir və dərk edirik. Bu hadisəni hərtərəfli araşdırmaqdan ötrü Moskvada siyasi büronun arxivlərinin materialları, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin, SSRİ Müdafiə Nazirliyinin arxiv materialları üzə çıxmalıdır. Ondan sonra bir sıra məqamlara aydınlıq gətirilə bilər".

**"Xalq qəzeti". - 2020 - ci il. - 15 yanvar. - S.7.**

## Ümumbəşəri Bəla

*"Gənclər tariximizi bilməlidir"*
***İlham Əliyev.***

Sumqayıt şəhərinin 70 illiyində möhtərəm prezidentimiz cənab İlham Əliyev sumqayıtlılar qarşısında dərin məzmunlu çıxış etdi, bütün sahələri Sumqayıtda gedən abadlıq-quruculuq işlərini, təhsil, səhiyyəni, şəhərin sənaye müəssisələrini elə gözəl təhlil etdi ki, dinləyənlər heyran oldu. Cənab prezident 1988-ci ildə Sumqayıtda baş verən hadisələri təcrübəli hüquqşünas kimi elə xarakterizə etdi ki, tarixçilər belə çox şey öyrəndilər.

"Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçilərdir, dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən millyyətçi erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir. Ondan sonra o cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orda sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırığını icra edirdi.

Əgər Heydər Əliyev vəzifədə qalsaydı, ermənilər belə əl-qol aça bilməzdilər, bu hadisələr baş verməzdi. Onlar Heydər Əliyev şəxsiyyətindən, siyasətindən qorxurdular". Ermənilər arasında separatizm közərtisi həmişə olmuşdur. 1905,1918-1920, 1945-1953 hadisələri və s. Lakin Sovet dövründə dövlət tərəfindən repressiyalar qorxusu olduğuna görə heç kəs səsini çıxara bilmirdi. Ona görə də biz 1987-ci ilə qədər ermənilərlə çox mehriban qonşular kimi yaşayırdıq. Bir yerdə yeyir-içir qonaq gedirdik. Biz ziyalılar gənclərimizə ermənilərlə dostluğumuzdan ağız dolusu danışırdıq. M.F.Axundzadə ilə X.Alovyanın, Mirzə Cəlillə A. Şırvanzadənin, Sero Xauzadyanla Şamxal əminin və s. dostluğundan həmişə fəxrlə danışırdı camaatımız. Bütün toy məclislərimizdə, bayram şənliklərimizdə S.Vurğunun 1930-cu illərdə yazdığı şeirə bəstələnmiş mahnını "qardaş olub Hayetan - Azərbaycan" mahnısını həvəslə oxuyurduq. Bir-birimizə gediş-gəlişə o qədər şirin, səmimi idi ki, azərbaycanlı oğlanlar erməni qızlarıyla ailə qururdular. Uşaqları gəlirdi dünyaya. Uşağa ad qoyma problemə çevrilirdi. Ana uşağa Şuren, Ruben, Hayqanis, Vartamuş erməni adı qoymaq istəyirdi. Ata isə Həsən, Hüseyn, Fatma, Tükəzban-azərbaycanlı adı qoymaq arzusunda olurdu. Sonra ara qarışıb məssəb itəndə Marusa Həsəni damın altında tək qoyub uşaqları da apardı dayılarının yanına.

Erməni ziyalılarının nümayəndələri və erməni siyasətçiləri serparatizmin başlamasına məhz M. Qorbaçovun başçılıq etdiyi komanda hakimiyyətə gələndə çox şey dəyişdi. Hakim komandada müşavirlərin çoxu erməni oldu. Millətçi əhval-ruhiyyəli müxtəlif erməni xadimləri rəhbərlik tərəfindən əzizləndi. Bu əzizlənmə Ermənistanda və Azərbaycan SSRİ-nin DQMV-də ermənilərin əl-qolunu açdı.

1987-ci ildə ermənilər Stepanakertdə (Xankəndi) DQİİM (Dağlıq Qarabağ İnqilabı İdarə Etmə Komitəsi) rus dilində isə (Komtet-Revolyusionmoqo Upravileniya Naqornoqo Karabuxa-Kurunk) adlı gizli təşkilatı yaratdılar. Sovet rejiminin güclü olduğu dövürdə heç bir "KRUNK" barədə söhbət belə ola bilməzdi.

1987-ci ildə gizli qeyri-formal yaradılan "KRUNK" (ermənicə durna deməkdir) təşkilatının azərbaycan dilini təmiz bilən üzvləri Sumqayıt şəhərində erməni talanlarını təşkil etməyə başladılar.

"KRUNK" təşkilatının fəalları Sumqayıtın erməni əhalisindən pul yığır, həmin sakinlərə məsləhət görürdülər ki, onlar özlərinin Əmanət kassalarında olan pullarını çıxarsınlar, varlı sex sahiblərinə isə şəhərdən çıxmağı tövsiyə etmişdilər.

1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başlanır. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli"!, "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürürdülər. Mitinqlərin üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid binası (XX əsrin əvvələrində isə şəhərdə 8 məscid olmuşdur) və azərbaycanlı orta məktəbi, C.Cabbarlı adına İrəvan Dram Teatrının ləvazimatı yandırıldı. İrəvanda bu hadisələrə etiraz bildirən azərbaycanlıların evlərinə od vurdular.

İrəvanda bütün bunlar törədilən zaman Sumqayıt faciəsi hələ hazırlanırdı. "Sumqayıt qırğınları" proqramının icraçılarından ən fəalının 1959-cu ildə anadan olmuş Eduard Robertoviç Qriqoryan adında ermənilərin olması (öldürülən 26 ermənidən 10 nəfəri onun payına düşür), hadisədən

10 gün əvvəl Sumqayıtın bütün əmanət kassalarından ermənilərin öz əmanətlərini kütləvi şəkildə götürmələri, qırğınların videolentə alınması üçün erməni operatorlarının əvvəlcədən hadisələrin planlı şəkildə törədiləcəyi yerlərdə özlərinə xəlvəti çəkiliş mövqeyi seçmələri, iki gündən sonra həmin lentlərin montaj edilib bütün dünyanı dolaşdırılması, "Sumqayıt qurbanları"nın xatirəsini "əbədiləşdirmək" üçün əvvəlcədən hazırlanmış abidənin dərhal Xankəndində qoyulması və bu kimi faktlar sübut edir ki, bütün bunlar erməniləri, eləcə də dünya ictimayyətini Azərbaycan xalqına qarşı ayağa qaldırmaq, onun "Vəhşi" obrazını yaratmaq məqsədini güdmüşdür. Sumqayıt qırğınlarının fəal təşkilatçılarından erməni Ohanyanın, Samoylov və Pavloviskinin adları isə uzun müddət mətbuatdan gizli saxlanmışdı.

1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər ölüb. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı olub. Bu hadisələr də SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərin özləri ilə birgə təşkil etdiyi və həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Sumqayıtda bu hadisəni təşkil etmək üçün seçilmiş şəxs də erməni - iki dəfə məhkum olunmuş Eduard Qriqoryan idi. Baxmayaraq ki, Sumqayıt hadisələrinin "təşkilatçısı" azərbaycanlı Əhməd Əhmədov güllələnib, amma şahid ifadələri əsl günahkarın əslində erməni əsilli Eduard Qriqoryan olduğunu sübut edir.

Sumqayıt faciəsi zamanı yüzlərlə azərbaycanlı ailəsinin öz həyatlarını təhlükə qarşısında qoyaraq, erməni qonşularını qəzəblənmiş kütlənin təhlükəsindən xilas etmələri haqqında mətbuatda çox yazılıb.

Sonralar Levon Ter Petrosyan öz müsahibələrinin birində demişdi: "Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü. Əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsaydı Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi".

Bu sözlər aydın sübut edir ki, Sumqayıt faciəsi ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur. Ermənistanın tanınmış xadimlərindən Paruyr Ayrikyan da etrif etdi ki, Sumqayıt hadisələri Moskva tərəfindən təşkil olunmuşdu.

Bu hadisələrin Moskva tərəfindən törədilməsi SSRİ Dövlət Təhlükəzlik Komitəsinin o vaxtki sədri N. Kryuçkov da etiraf etmişdir.

Bakının 30 km-də yerləşən Sumqayıt şəhəri təsadüfən seçilməmişdi. Həmin ərəfədə Ermənistandan zorla çıxarılmış 41 mindən artıq Azərbaycan türklərinin əksəriyyəti məhz Sumqayıtda məskunlaşmışdı və ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərə görə qəzəb içərisində idilər.

*********

Digər tərəfdən o vaxt Sumqayıt şəhərində 20 min şərti iş alanlar yerləşdirilmişdir. Mən də tez-tez onlarla görüşüb düz yola qayıtmalarını tövsiyyə edirdim. Həmin vaxt ailə nəzarətindən kənar qalan gənclər çoxluq təşkil edirdilər. Erməni quldurları onları asanlıqla aldadıb ixtişaşa qoşa bilirdilər. Hələ sovet dövründə "ölü zona" adlandırılan şəhərin əhalisi də yoxsulluq və səfalət ucbatından radikal addımlar atmağa meyilli idi. Ona görə də burada geniş miqyaslı iğtişaşlar törətmək mümkün oldu. Bir gün davam edən iğtişaşlar nəticəsində bəzi erməni evləri dağıdıldı, onlarla addam yaralandı, 32 nəfər, o cümlədən 26 erməni, 5 Azərbaycan türkü, 1 ləzgi öldürüldü. O da məlumdur ki, öldürülən ermənilərin demək olar ki, hamısı erməni terror fondlarına pul keçirməkdən imtina edənlər idi. Baxın ermənilər bir güllə ilə iki dovşan vurdular.

Birincisi-Nikolay Danilyan, Seda Danilyan 82 yaşında, Muxtaryan Firuzə, Qanbaryan Aleksandr, Qriqoryan Emma 80 yaşında və s. Bunlar öldürülən ermənilərlə erməni millətinə çatdırırdılar ki, erməni xalqının mənafeyini güdməyənin aqibəti belə olar.

İkincisi-Dünyaya çatdırdılar ki, biz deyəndə inanmırdız. Baxın, vəhşi, barbar müsəlmanlar yazıq, cəfakeş erməniləri qırırlar. Bunlarla yaşamaq mümkün deyil.

Zərərçəkmiş Sumqayıt sakini L. Meclumyan bildirdi ki, "Qriqoryan mənim mənzilimə daxil oldu, sındırdığı stulun ayaqları ilə xəstə anama zərbə endirdi, bu vaxt mən bir neçə dəfə müqavimət göstərməyə çalışdım, ancaq qadın olduğuma görə gücüm catmadı. O, məni yerə yıxaraq, istədiyini etməyə başladı". Hadisələrdə iştirak etmiş Nəcəfov soyadlı bir gənc isə istintaqa bildirdi ki, "Qriqoryan tərəfindən təşkil olunmuş dəstə Emma adlı erməni qadının 512 saylı evinə soxuldu, dərhal

onu lüt soyundurdular və Edik Qriqoryan onu bu vəziyyətdə küçəyə çıxartmağı təklif etdi, sonra onun iştirakı ilə Emma vəhşicəsinə öldürüldü.”

İstintaq materiallarının başqa yerində göstərilir ki, “E.Qriqoryan öz dəstəsi ilə 1-ci mikrorayonda M.Petrosyanın mənzilinə daxil olmuş, mqavimət göstərmək istəyən mənzil sahibinə başından zərbə endirərək halsız vəziyyətə salmışdır”. E.Qriqoryan Sumqayıt hadisələri zamanı 10 ermənini şəxsən özü öldürmüş, 8 erməni qadınını zorlamışdır. Ermənilər dünyaya hay salıb deyirdilər:

“Barbar müsəlmanlar Sumqayıtda erməniləri qırırlar. Bizi bu vəhşilərin əlindən alın!” maraqlıdır ki, əgər Azərbaycanlılar Sumqayıtda erməniləri qırırdılarsa, kütləvi surətdə qırardılar da! Necə olurduki ikinci mərtəbədə yaşayan ermənini öldürürdülər, üçüncü mərtəbədə yaşayanlara toxunmurdular.

Onlar əvvəlcədən siyahıya almışdılar, kim “KRUNK” təşkilatına üzv olmaqdan imtina edirdisə, pul vermirdisə onları öldürürdülər. Bu cür faktlar çoxdur.

Erməni təşkilatları bu cür cinayətlər törətmiş Qriqoryanı ağır cəzadan da qurtara bildilər. Məhkəmə azərbaycanlı Əhməd Əhmədov haqda ölüm hökmü çıxardı və hökm dərhal yerinə yetrildi. E. Qriqoryana isə yalnız 12 il iş verdi və bir neçə ildən sonra azadlığa buraxıldı. Bu hadisələr məşhur deyimi bir daha təsdiq etdi. “Ermənilər üçün ən yaxşı erməni ölü ermənidir”. Ermənilər ölmüş və yaxud öldürülmüş həmtayfalarından həmişə məharətlə istifadə edirdilər. Ermənilər Sumqayıt hadisələrindən öz məkirli niyyətləri üçün yararlanmaq məqsədi güdürdülər. Ona görə də bu hadisələr haqda dərhal dünya ictimaiyyətində yalnış rəy formalaşdırmağa, antiazərbaycan əhval-ruhiyyəsi yaratmağa başladılar.

Digər tərəfdən, erməni təşkilatları Azərbaycan və Ermənistan arasında qarşıdurmaya dönməz xarakter verməyə, münasibətləri daha da kəskinləşdirməyə, dinc nizamlama perspektivlərini heçə endirməyə çalışırdılar. Ermənilər qanlı terror aktlarını davam etdirirdilər.

Dövlət ittihamçısı Aslan İsmayılov Qriqoryan üçün ömürlük iş istəsə də bu qəbul olunmayıb. Sumqayıtda keçirilmiş məhkəmə proseslərində azərbaycanlılara qarşı qərəz nümayiş etdirilib. Dövlət ittihamçısının xəstə və hadisələrdə heç bir günahı olmayan Nəcəf Nəcəfalıyev haqda həbs qəti imkan tədbirinin dəyişdirilməsi ilə bağlı təklifi də qəbul olunmayıb və prosesin gedişində vəfat edib. Digər təqsirləndirilən şəxs Əhməd Əhmədov isə Moskvada keçirilmiş məhkəmənin qərarı ilə güllələnməyə məhkum edilib. Əhməd Əhmədovun hadisələrin əsas təşkilatçısı olduğunu sübuta yetirmək üçün istintaqçılar həmin gün əynində əslində boz kostyum olmuş Əhmədovdan guya üzərində qan ləkələri olan qara kostyumda olması ilə bağlı ifadə alıblar və bu dəlil kimi məhkəmədə ortaya çıxarılıb.

Sumqayıtlılar da Əhməd Əhmədovun cinayətkar olmadığını çoxdan inanır. Onun yaşadığı həyətdə qurulmuş xatirə bulağı xalqın artıq Ə.Əhmədova bəraət verdiyini göstərir.

SSRİ DTK-sının himayə etdiyi həmin qruplar şəhərin müxtəlif yerlərində qətliamlar törədib. Erməni milliyyətindən olan 26 nəfərin qətlə yetrilməsini məhz bu dəstlər həyata keçirib.Şəhərə yeridilən general Krayevin rəhbərlik etdiyi ordu hissələri isə bunları kənardan izlədikdən sonra, fevralın 29-da hadisələrə müdaxilə edib. Nəticədə 6 azərbaycanlı tankların tırtılları altında qalaraq şəhid olub, 400 nəfər xəsarət alıb, 200 mənzil talan edilib, 50 mədəni-məişət obyekti dağıdılıb, 40-dan avtomobil yararsız hala salınıb. Martın 1-dən Sumqayıtda komendant saatı tətbiq olundu.

Azərbaycanın o zamankı rəhbərliyi Sumqayıt hadisələrinin səbəblərini araşdıran istintaq qrupunun ermənilərin xeyrinə işləməsini təkcə susmaqla müşayət etməyib, ədalətsiz qərara imza atıb. Hadisələrin səbəbini araşdıran keçmiş SSRİ Prokurorluğu və DTK-nin nümayəndələrindən ibarət istintaq qrupu baş verənləri bütövlükdə azərbaycanlıların üzərinə qoymaqla əsl həqiqəti ört basdır edib.

Təəssüf ki, həmin istintaq qrupuna daxil olan Azərbaycanın hüquq-mühafizə orqanlarının nümayəndələri haqsızlığa qarşı çıxmaq əvəzinə, günahsız insanların mühakiməsində iştirak ediblər. Nəticədə 3 minə yaxın günahsız Sumqayıt sakini zindanlara doldurulub. Onlardan 400-ü inzibati məsuliyyətə cəlb edilib, böyük bir qismi rüşvət verməklə canını qurtarıb, 94 nəfər barəsində isə cinayyət işi açılıb.

İstintaq dövründə zorla müttəhim elan edilmiş, ikinci qrup əlil, insulindən asılı yaşayan Elçin Güləliyev Bayıl həbsxanasında müəmmalı şəkildə öldürülmüşdür. Onun işinə məhkəmə baxışı zamanı günahsızlığı üzə çıxmışdır. Ziyalı ailədən olan Taleh ismayılova isə 15 il iş kəsilmiş, cəzasını “siyasi məhbus” kimi çəkmək üçün Tblisiyə göndərilmiş, bir ildən sonra meyidi gəlmişdir. “Qızıl Ordu”-nun zopasına tuş gəlmiş Azər Babayev isə 23 ildir yatağından qalxa bilmir.

******

**Ermənistanın xüsusi xidmət orqanları, SSR Dövlət Təhlükəsizlik Komitəsi ilə birlikdə Sumqayıtda “Nalyotçik”(azərb. “Basqıncı” kodu adı altında təxribat aparmağı planlaşdırmışdılar. “Nalyotçik” qrupunun üzvləri bunlar idi:**

**1.** Qriqoryan Albert Robertoviç-Edard Qriqoryanın qardaşı, yetkinlik yaşına çatmayan gənclərə narkotik maddələr paylayır və onları erməni ailələrinə hücum etməyi çağırırdı.

**2.** Qriqoryan Tiqran Robertoviç-Eduard Qriqoryanın qardaşı, gənclərə narkotik paylayır, qarətlə məşğul olurdu.

**3.** Qriqoryan Tiqran Robertoviç-Eduard Qriqoryanın qardaşı, iğtişaşlardan əvvəl azyaşlı uşaqları spirtli işgilərlə təmin edirdi.

**4.** Saturyan Levon Akopoviç-Dağlıq Qarabağ Muxtar vilayəti Dövlət Təhlükəsizlik İdarəsinin əməkdaşı, “Qarabağ” komitəsinin fəal üzvü. Milli zəmində baş verən hadisələrin təşkilatçılarından biri.

Sumqayıtda “Krunk” cəmiyyətinin fəalları ilə mütəmadi olaraq əlaqə saxlayır, informasiya toplamaqla məşğul olurdu.

**5.** Sərkisyan Suren Yuryeviç- “Qarabağ” komitəsinin üzvü. Gəncləri iğtişaşlara səsləyirdi. “Krunk” cəmiyyətinə üzvlük haqqı ödəməyənlərin siyahısına əsasən gəncləri onların evlərinə basqın etməklə məşğul olurdu. Hadislərdən sonra dərhal Daşkənd şəhərinə köçmüşdür.

**6.** Makaryan Valeri-Bakı şəhərinin sakini, sürücü. İdarə etdiyi avtobusla Sumqayıtda 4 azərbaycanlını vurub öldürmüş və Bakını tərk etmişdir.

**7.** Mosesov Eduard Nikolayeviç – “Kommunist” qəzetinin (erməni dilində) müxbiri. Sumqayıt hadisələrinəd video çəklişlərin aparılması, dislokasiyası ilə məşğul idi.

**8.** Qriqoryan Artur- “Kommunist” qəzetinin (erməni dilində) müxbiri. Foto və video çəklişləri aparırdı.

**9**. Aqadlyanın Qriqori – “Kommunist” qəzetinin ( erməni dilində) müxbiri. Video və çəklişləri aparırdı.

**10.** Qriqoryan Benk Setrakoviç- “Krunk” çəmiyyətinin fəal üzvü. Sumqayıt Şəhəri, 9-cu mik-n, ev 25e, s saylı mənzilin sakini. Sumqayıt şəhəri, 9-cu mik-n, ev 36, 59 saylı mənzildə yaşayan Babayanın ev əşyalarını boşaltdıqdan sonra, hər iki mənzili yandırmış və günahı Quliyev Fəxrəddin Əhəd oğlunun üstünə atmışdır.

**11.** Petrosyan Viktor Vartanoviç- 1959-cu il təvəllüdlü, 1-ci mik-n, ev125/34, 28 saylı mənzilin sakini. Sumqayıtda gəncləri mitinqə təhrik edirdi.

**12.** Petrosyan Vacik Vartanoviç- qardaşı Viktorla eyni tapşırığı yerinə yetirirdi.

**13.** Qriqoryan Engels Cerkesoviç- “Kurnk” cəmiyyətinin fəal üzvü. 1958–ci il təvəllüdlü, 3-cü mik-n, v 52, 45 saylı mənzilin sakini. Sumqayıtda iğtişaşlar zamanı qarətlə məşğul olan qrupa rəhbərlik edirdi.

**14.** Davidyan Anatoli Armaisoviç- “Qarabağ” komitəsini üzvü. 1955-ci il təvəllüdlü, 1-ci məhəllə, ev 5a,21 saylı mənzilin sakini. Gəncləri Sumqayıtın 3-cü mikrorayon ərazisinə toplamaqla məşğul idi.

**15.** Zaxaryan Aram Aqa Nesoviç- 1959-cü il təvəllüdıü, 11 mik-n, ev 6, 25 saylı mənzilin sakini. İğtişaşlarda qarətlə məşğul olurdu.

**16.** Maryan Zoya- “Krunk” cəmiyyətinin fəal üzvü. 1948-ci il təvəllüdlü, 7-8-12-ci məhəllə, ev 92a, 6 saylı mənzilin sakini. Sumqayıtda yaşayan ermənilər arasında vasitəçilik rolunu oynayırdı.

**17.** Avakyan Sergey Qurgenoviç- 41 məhəllə, ev 4a, 62 saylı mənzilin sakini. Gəncləri 3-cü mik-na yönəltməklə fəallıq göstərib.

**18**. Ambartsumyan Rudik Viktoroviç- 1958-ci il təvəllüdlü, “Qarabağ” komitəsinin üzvü. 41a məhəllə, ev 27, 30 saylı mənzilin sakini. Qarətlə məşğul olub.

**19.** Melkumyan Edik Ambartsumoviç- 4-cü mik-n, ev 16/25, 26 saylı mənzilin sakini. Şaiələr yaymaqla məşğul olurdu. Bir sıra qarətlərdə iştirak edib.

**20.** Ambartsumyan Valeri Mixayloviç- “Ktunk” cəmiyyətinin fəal üzvü. 1959-cu il təvəllüdlü, 3-cü mik-n, ev 8, 3 saylı mənzilin sakini. Eduard Qriqoryanın yaxın silahdaşı olub.

**21.** Ambartsumyan Djapolad Mixayloiç – 1967-ci il təvəllüdlü, 3-cü mik-n, ev 8, 8 saylı mənzilin sakini.Yeniyetmələri öz arxasınca aparırdı. Qarət və oğurluqla məşğul olub.

**22.** Altunyan Qarik İsayeviç – 1964-cü il təvəllüdlü, 9-cu mik-n ev 6, 6 saylı mənzilin sakini. Qarət və oğurluqla məşğul olub.

**23.** Minasyan Albert – “Qarabağ” komitəsini üzvü. 1939-cu il təvəllüdlü 6-cı mik-n, ev 35, 4 saylı mənzilin sakini. Hansı mənzillərə hücum olunacağı haqqında gənclərə əvvəlcədən məlumatverirdi.

**24.** Tamrazyan Kamo Georgiyeviç – 1961-ci il təvəllüdlü, 45-ci məh-lə, ev 79, 73 saylı mənzilin sakini. Eduard Qriqoryanın qardaşlarına köməklik edir, narkotik və spirtli içkilər paylayırdı.

**25**. Qriqoryan Artaş Masesoviç – 45-ci məh-lə, ev 1/48, 38 saylı mənzilin sakini. Ticarət obyektlərinin qarəti ilə məşğul olurdu.

**26**. Arakelyan Valeri Sokratoviç – 7-8-12- ci məh-lə, ev 76, 40 saylı mənzilin sakini. Ev əşyalarının oğlanması ilə məşğul olurdu.

**27**. Arakelyan Sergey Sokratoviç - 7-8-12-ci məh-lə, ev 76, 40 saylı mənzilin sakini. İğtişaşlarda gəncləri istiqamətləndirirdi.

**28**. Gevorkyan Mixail Qriqoryeviç – "Krunk" cəmiyyətinin fəal üzvü idi. 45–ci məh-lə, ev 5, 18 saylı mənzilin sakini. Oğurluqla məşğul idi.

**29**. Bomasyan Qoqar – 18-ci məh-lə, ev 16, 8 saylı mənzilin sakini. "Ermənilərə ölüm!" şüarı ilə şaiələr yayır və camaatı mitinqə səsləyirdi.

**30.** Ağababyan Zavyen Karlenoviç – 1955-ci il təvəllüdlü, 3-cü məh-lə, ev6, 6 saylı mənzilin sakini. "Qarabağ bizimdir!", "Ermənilərə ölüm!" deyə camaatı mitinqə səsləyirdi.

**31**. Asatryan Slfvik Qriqoryevic "Krunk" cəmiyyətinin üzvü. 10-mik-n, ev 7, 46 saylı mənzilin sakini. İğtişaşların fəal üzvlərindən idi.

**32.** Pxakadze Konstantin Mixayloviç – Abovyan, Ermənistan. "Nalyotçik"in ən fəal üzvlərindən idi. Stepanakert və Yerevanla əlaqə yaradırdı. Moskvadan gələn DTK-çıların əmrinə əsasən hərəkət edirdi. Hadisələrdən sonra Orta Asiyaya ezam olundu.

**33.** Sarksiyan Suren Yuryeviç – "Qarabağ" komitəsinin üzvü. 1956–cı il təvəllüdlü, Stepanakert, Pioner küçəsi, ev 4. Hadisələrin gedişatı haqqında informasiya toplayırdı. Ermənistanın xüsusi xidmət orqanları ilə əlaqə yaradırdı.

**34**. Petrosyan və Poqosyon – 1988-ci ildə Moskvada cinayət törədərək Azərbaycana gəlmişlər. Ümumiittifaq axtarışında olublar. Sumqayıta maneəsiz gəlmikdə SSRİ DTK-sının köməyi olmuşdur. İğtişaşlar zamanı Qriqoryana yaxından köməklik göstəriblər.

Beləliklə Sumqayıt şəhərindən rahat köçüb gedən ermənilərdən Ermənistandan qovulan azərbaycanlılar əllərində olan pulla dövlət evlərini satın alırdılar.

1989-cu ildə martın 11-də Nazirlər Soveti 65№li qərarla ermənilərə 364 min rubl pul köçürtdü.

Həmin pulla onlar "Genosid Qlasnost" kitablarını 50 min tirajla çap etdirib dünya ictimayyətinə çatdırıb azərbaycanılıların vəhşi obrazını yaratdılar.

Bütün bunlar bir daha onu sübut edir ki, Sumqayıt hadisələri qabaqcadan düşünülmüş və planlaşdırılmış bir aksiya idi. Bütün bunları gənc nəsil bilməli, qulaqlarında sırğa etməli, nəticə çıxartmalı, bir daha erməni hiyləsinə aldanmamalıdır.

**Əvəz Mahmud Lələdağ,**
**SDU-nun müəllimi,**
**şair, dramaturk, publisist**

**Ədalət qəzeti. 2020.-ci il. 8 fevral. - №4. – S.4; 11 fevral. - № 6. - S. 6; 12 fevral. - №. S. 3.**

## Sumqayıt hadisələri: haqq nazilsə də, üzülmədi

*Bu gün Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzi və dünyanın 19 şəhəri ilə qardaşlıq əlaqələri olan bir şəhərdir. Amma cəmi bir qərinə əvvəl Sumqayıt əksər beynəlxalq hesabatlarda əsl ekoloji fəlakət zonası və 1988-ci ildə erməni sakinlərinin qətlinə səbəb olan qanlı aksiyaların ünvanı kimi tanınmışdı. Sovet dönəmində bu şəhərdə ekoloji tarazlığın pozulduğunu həmin dövrün acı reallığı kimi etiraf etməli olsaq da, ermənilərin ölümü ilə nəticələnən hadisələrdə Sumqayıtın suçlandırılması ilə heç cür razılaşa bilmərik. Çünki bu, əsl həqiqətin siyasi məqsədlərlə təhrifindən, erməni və sovet təbliğat maşınının "məhsul"u olmaqdan başqa bir şey deyil.*

Xatırladaq ki, sovet dövründə Sumqayıt bütün ölkədə beynəlmiləl şəhər kimi şöhrət qazanmışdı. Xəzərin sahilindəki bu gözəl şəhərdə 83 millətin nümayəndələri bir ailə kimi yaşayıb işləyir, xalqların dostluğunu hər vasitə ilə gücləndirirdilər. Gənclik şəhərində "Sülh", "Dostluq", "Rustavi", "Çerkassı", "Kirovakan" adlı küçələrin, "Rusiya" kinoteatrının, sülh rəmzi "Göyərçin" abidəsinin, 15 sovet respublikasının qardaşlığını əks etdirən "Birlik" monumentinin olması bu baxımdan xarakterik idi. Hətta o vaxtlar burada fəaliyyət göstərən "Xalqlar Dostluğu" muzeyində Əfqanıstanda ölmüş bir sumqayıtlı erməni əsgərin xatirəsinə ayrıca guşə də yaradılmışdı. "Sumqayıtın fəxri vətəndaşı" adına layiq görülmüş 28 nəfərdən üçü isə – SSRİ Kimya Sənayesi naziri Leonid Kostandov, inşaatçı Otanes Arutyunyan və şahmatçı Harri Kasparov məhz "zavallı" millətin nümayəndələri idi.

Göründüyü kimi, Sumqayıtı erməni qətllərinin törədildiyi bir məkan kimi təqdim etmək cəhdi əslində yalanla yoğrulmuş, müvəqqəti də olsa, riyakarların işinə yarayan siyasi təxribat idi. Daşnaklar qəsdən antierməni iğtişaşları törətdikdən sonra "Sumqayıtda erməni genosidi!" deyə bağıraraq, bu şəhəri və bütövlükdə Azərbaycanı dünya ictimaiyyətinin gözündən salmağa çalışıb və ardınca da məsələ qaldırıblar ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması təhlükəlidir, onu Ermənistana birləşdirmək lazımdır. Elə bu təxribatın davamı olaraq, çox keçmədən Ermənistandan azərbaycanlıların mütəşəkkil surətdə, silah gücünə qovulmasına start verildi. 1988-ci il noyabr ayının 28-dən dekabrın 7-dək erməni separatçıları və millətçiləri basqın edib azərbaycanlılar yaşayan 22 rayonun 185 yaşayış məntəqəsinin sakinlərini kütləvi şəkildə ata-baba yurdlarından çıxartdılar. Həmin günlərdə 217 nəfər azərbaycanlı öldürülüb ki, onlardan 57-si qadın, 5-i uşaq, 18-i isə yeniyetmə olmuşdur. Qırğın Ermənistanın 19 rayonunda və 11 şəhərində törədilib. Quqark, Vardenis (Basarkeçər), Masis (Zəngibasar) bölgəsində daha çox azərbaycanlı qətlə yetirilib.

Sonrakı mərhələdə isə Dağlıq Qarabağ münaqişəsi alovlandırılıb, muxtar vilayətə daxil olan 5 və onun ətrafında yerləşən 7 rayon Ermənistan tərəfindən işğala məruz qalıb, 1 milyon soydaşımız doğma yurd-yuvasından qaçqın düşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il noyabrın 21-də Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdəki nitqində bir daha həmin hadisələrin mahiyyətinə, ermənilərin qanlı aksiyalarının əslində nəyə xidmət etdiyinə aydınlıq gətirmişdir: "Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi".

Dövlətimizin başçısı bir daha Sumqayıt hadisələrinin pərdəarxası məqamlarını açaraq bəyan etmişdir ki, erməniləri öldürən qatil Qriqoryan Ermənistan rəhbərliyi tərəfindən ona görə azadlığa buraxılıb ki, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edilməklə Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət alıb və nəticə etibarilə Dağlıq Qarabağ münaqişəsi başlanıb.

Statistik məlumatlara görə, 1988-ci ilin yanvarın 1-də Sumqayıtda müxtəlif millətlərdən olan 258200 nəfər yaşayırdı ki, onların da 14208 nəfəri erməni idi. Bu ermənilərin bir qismi separatçı "Qarabağ" və "Krunk" təşkilatlarına üzvlük haqqı verməkdən imtina edən, bu təşkilatların millətçi siyasətlərini qəbul etməyən adamlar idi. Çox güman ki, Kremldə Mixail Qorbaçovun başçılığı altında hadisələrin ssenarisi tutularkən 1961-ci il mayın 1-də Sumqayıt şəhərində Sov.İKP MK-nın Baş Katibi Nikita Xruşşovun "şəxsiyyətə pərəstiş siyasəti"nin əleyhinə etiraz nümayişinin baş tutduğu da nəzərə alınmışdı. Üstəlik, təşkilatçıların şəhərdə yaranmış gərgin ekoloji vəziyyətdən, sənaye müəssisələri ilə

əhatə edilən ərazidəki "gecəqondu"larda antisanitariya şəraitində yaşamağa məcbur olan yüzlərlə ailənin narazılığından da "qığılcım" kimi istifadə etmək niyyəti vardı...

İstintaq materialları ilə sübut edilib ki, hadisələri törədənlərin ön cərgəsində xüsusi hazırlıq keçmiş erməni təxribat qrupu gedib. Talan və qətllərə təhrik olunan cinayətə meylli ünsürlərə, hələ yetkinləşməmiş gənclərə spirtli içkilər və narkotik vasitələr verərək onları, necə deyərlər, özlərindən çıxaran, sonra da "Ermənilləri öldürək!", "Qarabağ bizimdir!", "Ardımca gəlin!" şüarları ilə ermənilərin mənzillərinə istiqamətləndirən "quldurbaşı" əvvəllər 3 dəfə mühakimə olunaraq 9 ildən çox həbsxana həyatı yaşamış qatı cinayətkar, "Paşa" ləqəbli erməni Eduard Qriqoryanla üç qardaşı – Albert,Tiqran və Ernest Qriqoryanlar əsas icraçılar kimi təsbit ediliblər.

Sumqayıt hadisələrinin tədqiqatçısı olan həmkarım, Əməkdar jurnalist Eyruz Məmmədovun bildirdiyinə görə, "Təşkilatçı" kimi qələmə verilən və Qriqoryana öz göstərişləri ilə yaxından kömək göstərən "Nalyotçik" ("Basqınçı") qrupunun daha 31 erməni üzvü olub. Onlardan biri Bakı, 22-si Sumqayıt sakini idi. Bakılı Valeri Markaryan idarə etdiyi avtobusla Sumqayıtda dörd azərbaycanlını vuraraq öldürüb və şəhəri tərk edib. Bu sətirlərin müəllifi həmin "qəza"nın şəxsən şahidi olub. Yeri gəlmişkən, "Nalyotçik" siyahısındakı ermənilərdən biri də, sən demə, Sumqayıtın 6-cı mikrorayonunda mənimlə eyni binada yaşayan, Albert Minasyan imiş. Minasyan "Qarabağ" komitəsində fəallıq göstərib və hansı mənzillərə hücum olunacağı haqqında gənclərə əvvəlcədən istiqamət verib.

"Nalyotçik" qrupunun qalan üzvləri isə Dağlıq Qarabağ Muxtar Vilayəti Dövlət Təhlükəsizlik İdarəsinin əməkdaşı Levon Saturyan (Sumqayıtda "Krunk" cəmiyyətinin fəalları ilə mütəmadi əlaqə saxlayır, informasiya toplamaqla məşğul olurdu, milli zəmində baş verən hadisələrin təşkilatçılarından biri idi), "Qarabağ" komitəsinin fəal üzvü Suren Sərkisyan (vəzifəsi "Krunk" cəmiyyətinə üzvlük haqqı ödəməyənlərin siyahısına əsasən gəncləri onların evlərinə basqın etməyə səsləmək idi, hadisələrdən sonra dərhal Daşkənd şəhərinə köçüb), həmçinin iğtişaş səhnələrinin video çəkilişlərini təşkil edənlər – erməni dilində "Kommunist" qəzetinin müxbirləri Eduard Mosesov, Artur Qriqoryan və Qriqori Aqadlanyan, Ermənistanın Abovyan şəhər sakini Konstantin Pxakadze, DQMV Stepanakert şəhər sakini Suren Sərkisyan və 1988-ci ildə Moskvada cinayət törədərək Azərbaycana yollanan, haqlarında Ümumittifaq axtarışı elan edilsə də, DTK-nın köməyi ilə Sumqayıta maneəsiz daxil olan Petrosyan və Poqosyan olublar.

Eyruz Məmmədovun dediklərindən:

- Burada bir məsələyə də toxunmaq istəyirəm. 1988-ci ilin fevral hadisələrində Qriqoryana ekstremist qrupu ilə yanaşı, erməni millətindən olan xüsusi xidmət orqanlarının əməkdaşları yaxından kömək etmişdilər. "Bakinski raboçi" qəzeti 1 mart 2011-ci il tarixli sayında yazırdı: "Dövlət Təhlükəsizlik Komitəsinin arxiv materiallarından aydın olur ki, Dağlıq Qarabağda separatçı qüvvələrdən olan Sarkisyan, Osipyan və başqaları SSRİ Dövlət Təhlükəsizlik Komitəsənin agentləri olublar. Onlar Sumqayıt hadisələrində fəal iştirak etmiş, sonra Orta Asiya respublikalarına ezam olunmuşdular. Bu agentlərin izi Özbəkistanda və Qırğızıstanda baş verən iğtişaşlarda üzə çıxmışdır. Bu fakt bir daha sübut edir ki, Sumqayıtda, Fərqanədə, Oşda, Taşlakda baş verən təxribatlar bir mərkəzdən təşkil edilmiş və həyata keçirilmişdir".

Sumqayıtda baş verən hadisələrdə 32 nəfər insan qətlə yetirildi. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı idi. "Nalyotçik" ekstremist qrupu Sumqayıtda öz "vəzifə"sini yerinə yetirdikdən sonra Moskvadan gələn SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları təcili olaraq şəhəri tərk etdilər. Moskvaya qayıdan orqan işçilərinin rütbələri artırılmış, onların hər biri vəzifəcə yüksəlmişdir. Rusiya Federasiyasının keçmiş prezidenti B.Yeltsinin vaxtında nazir, baş nazir olmuş, "FSB"-də məsul vəzifələrdə işləmiş Stepaşini, Çernenkonu, Nikolayevi və başqalarını misal göstərmək olar.

SSRİ Baş Prokurorluğu, kütləvi informasiya vasitələri Sumqayıt hadisələrində bilavasitə iştirak edən erməni ekstremistlərin adlarını gizlətmişdilər. Bütün cinayət hadisələri azərbaycanlıların üzərinə atılmalı idi. "Nalyotçik" qrupunun fəaliyyətinin ifşa edilməsində Azərbaycanın hüquq-mühafizə orqanlarının xüsusi xidməti olmuşdur.

Daha bir maraqlı fakt: hüquq-mühafizə orqanlarının arxiv materiallarından məlum olur ki, Eduard Qriqoryan 1988-ci ilin əvvəllərində Stepanakertdə, sonralar Ermənistan Respublikasının prezidenti olan Serj Sarkisyanla, "Krunk" cəmiyyətinin fəalları Manuçarovla, Dədəmyanla görüşmüşdü. Görəsən, qatı millətçi Serj Sarkisyanın tüfeyli həyat sürən Eduard Qriqoryanla

Stepanakertdə nə işi ola bilərdi? Cavab aydındır. Dağlıq Qarabağ məsələsi düyünə düşmüşdü. Bu düyünü açmaq üçün isə Sumqayıt variantından istifadə etmək lazım idi.

SSRİ-nin və Ermənistanın xüsusi xidmət orqanlarının "Nalyotçik" kodu adı altında keçirdikləri əməliyyat, demək olar ki, "uğur"la yerinə yetirildi. Erməni millətçiləri dünya ictimaiyyətinə azərbaycanlıları başkəsən, bandit və soyğunçu kimi qələmə verməyə çalışdılar. Böhtan xarakterli təbliğat mexanizmi var gücü ilə işə salındı. Lakin ermənilərin iftira və böhtanları gec də olsa ifşa edildi. Sumqayıtda baş verən hadisələrdə əsl günahkarların kim olduğu geniş ictimaiyyətə məlum oldu...

Həmkarım sonda bildirdi ki, bu hadisələrin Kremlin göstərişi ilə əvvəlcədən hazırlanmış ssenari üzrə ermənilər və ermənipərəst qüvvələr tərəfindən törədildiyini təsdiqləyən bir çox başqa faktlar da var.

Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdəki geniş nitqində o vaxtkı Azərbaycan rəhbərliyinin respublikanı idarə edə bilmədiyinə, xalq ilə hakimiyyət arasında dərin uçurum yarandığına da diqqəti cəlb etmişdir: "Mən dəfələrlə bunu demişəm, əgər, Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi".

Ulu öndər 1982-ci ildə Moskvaya gedəndən sonra Azərbaycana rəhbərlik edən şəxslər Dağlıq Qarabağdan boy göstərən separatizm meyllərinə, təəssüf ki, çox biganə yanaşır, öz məsuliyyətlərini dərk etmirdilər və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdılar. Eyni zamanda, erməni millətçiləri Sumqayıtda da kök sala bilmiş və marığa yatmışdılar. 1987-ci ildə Heydər Əliyev Moskvada tutduğu yüksək vəzifədən istefa verdikdən sonra Azərbaycan daha açıq şəkildə ermənilərin hədəfinə çevrildi. Fransa Erməni İnstitutunun və Erməni Veteranları Assosiasiyasının təşkil etdiyi qəbulda akademik Abel Aqanbekyan mənfur niyyətlərini çəkinmədən dilə gətirdi: "Mən istərdim ki, respublikanın şimal-qərbində yerləşən Qarabağ Ermənistanın olsun, o, Azərbaycana nisbətən Ermənistana daha çox bağlıdır. Mən bu istiqamətdə bir təklif irəli sürmüşəm. Ümidvaram ki, yenidənqurma, demokratiya şəraitində həmin problem öz həllini tapacaqdır". Mixail Qorbaçovun əlaltısının bu çıxışı 1987-ci ilin noyabrında Parisdə nəşr olunan "Humanite" qəzetində dərc ediləndən dərhal sonra separatizmə yaşıl işıq yandırıldı. Təəssüf ki, həmin planı ermənilər havadarlarının köməyi ilə qismən də olsa, həyata keçirə bildilər.

Sumqayıt hadisələrindən 32 il ötür. Mənfur qonşularımız millətimizə qarşı məkrli ideoloji təbliğatda bu hadisələrdən yenə də silah kimi istifadə edirlər. Amma haqq nazilsə də, üzülməz. Çoxdan, həm də tutarlı faktlarla əsaslandırılıb ki, Sumqayıt olayları Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına və keçmiş SSRİ-nin dağılmasına təkan verəcək vasitələrdən biri kimi düşünülmüşdü.

Həmin hadisələr zamanı şəhərin rəhbər işçiləri, çox güman ki, bilərəkdən məzuniyyətə çıxarılmış, hüquq-mühafizə orqanları bir növ fəaliyyətsiz hala gətirilmişdi. Buna görə də qanunazidd hərəkətlər sürətlə baş alıb getdi. Fevralın 28-29-da təhrikçi dəstə şəhərin emosiyalara uymuş gənclərinin kortəbii axını ilə faciəli hadisələrə yol açaraq aradan çıxdı. İki gündə 50-dən artıq mədəni-məişət obyekti dağıdıldı, 40-dan çox avtomaşın sıradan çıxarıldı, 200-dən artıq mənzil talan edildi, 400-dən çox adam bədən xəsarəti aldı. Qanlı aksiyalarda 32 nəfər sakin qətlə yetirildi.

Üç gün ərzində şəhərdə sabitliyi bərpa etməkdən ötrü heç bir tədbir görməyən hakimiyyət dairələri yalnız dalğa yatandan sonra, martın 1-də Sumqayıtda fövqəladə vəziyyət elan etdilər. Bundan sonra komendant saatı və pasport rejimi tətbiqinin heç bir mənası yox idi. Amma, görünür, bu, Moskvadan göndərilmiş istintaq qrupunun rahat işləməsi üçün lazım imiş. Hadisələrə görə minə yaxın adam şübhəli şəxs qismində saxlanıldı, 500 nəfər həbs olundu, 94 nəfər mühakimə edildi. Dəstə başçısı Eduard Qriqoryana 12 il, dəstə üzvü Taleh İsmayılova isə 15 il həbs cəzası verildi (!?). Əhməd Əhmədov erməni lobbisinin hay-küyü sayəsində güllələndi. İkinci qrup əlil olan Elçin Gəncəliyev istintaq dövründə verilən işgəncələrə dözməyərək təcridxana kamerasında özünü asdı.

Martın 1-də Sumqayıtda komendant saatı tətbiq olunandan sonra general-leytenant V.Krayev şəhərə komendant təyin edilmişdir. Onun əmri ilə bütün erməni ailələri evlərindən çıxarılaraq şəhər partiya komitəsinin akt zalına, mədəniyyət evlərinə, sanatoriyalara yerləşdirilmişdi. O zaman yüzlərlə sumqayıtlı tutulub milis şöbəsinə aparılmış, hüquqazidd şəkildə dindirilmiş və incidilmişdir. Əslində isə azərbaycanlı ailələr bir çox ermənini öz evlərində gizlətməklə Qriqoryanın cinayətkar dəstəsindən qorumuşdu.

Daha bir maraqlı məqam budur ki, Sumqayıtda “uğur”la həyata keçirilən erməni təxribatından ikicə gün sonra Xankəndidə “Sumqayıt genosidi” qurbanlarına abidə ucaldılmışdır. Bu isə təxribatı onların özlərinin törətməsini sübut edən daha bir aşkar faktdır.

Məlumdur ki, Sumqayıt hadisələrinin təşkilatçılarını məsuliyyətə cəlb etmək üçün müvafiq beynəlxalq orqanlara müraciət edilməsi və bunun üçün hüquqi əsasların müəyyən olunması məqsədilə bir neçə il əvvəl Prezident İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Respublikasının Baş Prokurorluğu Sumqayıt iğtişaşları ilə bağlı istintaqı təzələmiş və onun hərtərəfli aparılmasına başlanmışdır. İstintaq nəticəsində Sumqayıt hadisələrinin həqiqi mahiyyəti üzə çıxmış, bu hadisələrin əsas sifarişçi və təhrikçilərinin Qorbaçov, sovet rəhbərliyində təmsil olunmuş ermənipərəst dairələr və “Böyük Ermənistan” xülyası ilə yaşayan erməni millətçi və separatçı qüvvələrinin olması müəyyən edilmişdir. İstintaq nəticəsində Sumqayıt hadisələrinin mahiyyətcə Dağlıq Qarabağın Azərbaycandan qoparılması üzrə mübarizənin “rəsmi səbəbi” kimi qanlı təxribat olması tam sübuta yetirilmişdir.

Hadisələrdən 32 il keçməsinə baxmayaraq, ermənilər hələ də dünya ictimaiyyətini, beynəlxalq təşkilatları bu hadisələrin əsl səbəbləri ilə əlaqədar aldatmağa çalışmaqdan əl çəkmirlər. Onlar Sumqayıtda iğtişaşların hansı niyyətlə törədildiyini gizlətməkdən ötrü dəridən-qabıqdan çıxırlar. Buna görə də nankor qonşulara davamlı şəkildə ciddi və qəti qarşılıq verilməli, düşmən əldə olan konkret və tutarlı faktlarla ifşa edilməlidir.

**Əli Nəcəfxanlı,**
**“Xalq qəzeti”. - 2020-ci il. - 27 fevral. - S. 7.**

## Sumqayıt ermənləri şəhərdə iğtişaşın baş verəcəyini əvvəlcədən bilirdilər...

***Sumqayıt təxribatı - erməni millətçilərinin çirkin əməli***

1988-ci il fevral ayının 28-dən 29-na keçən gecə erməni terrorçuları xaricdə yaşayan havadarlarının köməyi ilə Sumqayıtda qan tökdülər. Bu hadisələr nəticəsində Sumqayıtda müxtəlif millətlərdən olan 32 nəfər həlak olmuş, 400-dən çox insan bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın sındırılmış və qismən yandırılmış, şəhərə ovaxtkı qiymətlərlə 10 milyon ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur.

Lakin o zaman şübhəli şəkildə ildırım sürəti ilə bütün dünya mətbuatında yayılan böhtanlar, erməni millətçilərinin çirkin niyyətli kampaniyaları həqiqəti üstələməyə başladı. Təkzibolunmaz faktlar bilərəkdən və qəsdən təhrif olundu, rəqəmlər şişirdildi və Azərbaycan xalqı dünya ictimaiyyətinə "qatil" kimi təqdim olunmağa başlandı. "Pravda" qəzeti 4 aprel 1988-ci il tarixli sayında yazırdı ki, Ermənistanın Moskvadakı nümayəndəliyinin yaydığı məlumata görə, guya Sumqayıtda 1000 nəfərə qədər adam öldürülüb...

Amma faktlarla sübut olunan həqiqət o idi ki, məhz ermənilərin planları və iştirakı ilə həyata keçirilən qanlı Sumqayıt cinayətləri planlaşdırılan böyük bir oyunun sadəcə kiçik halqası, xaricdə yaşayan erməni lobbisinin vəsaiti və köməyi ilə Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək üçün çirkin və məkrli oyunların davamı idi...

### Tüfeyli və cani Qriqoryan Sumqayıt talanlarını təkbaşına planlaşdıra bilərdimi?!

Qanlı cinayəti isə üç dəfə mühakimə olunmuş "Paşa" ləqəbli Eduard Qriqoryan törədirdi. Qətlləri, talanları, zorakılığı özü şəxsən həyata keçirirdi. O Qriqoryan ki, pasportunun milliyyət adlı xanasına öz əli ilə erməni yazmışdı, həyat yoldaşı Rita Qəhrəmanyan erməni idi, yaxınları, tanışları, xoş günündə iştirak etdiyi insanlar da erməni idi. Və ən əsası övladları da erməni idi... Bəs haradan qaynaqlanırdı erməni Qriqoryanda öz millətinə qarşı bu qədər "nifrət"?!

"Eduard Qriqoryan tüfeyli həyat sürən bir canidir. Dəfələrlə həbs olunsa da, nəticə çıxarmayıb. O, Sumqayıtın azyaşlı uşaqlarını başına toplayıb, beyinlərini dumanlandırmış, iğtişaşlara rəhbərlik etmişdir. Sumqayıtda baş verən hadisələrdə onun cinayət əməlləri nəticəsində 5 erməni qətlə yetirilmiş, 8 qadın zorlanmışdır"- bu, SSRİ Baş Prokurorluğunun mühüm işlər üzrə müstəntiqi, o vaxtlar istintaq qrupunun rəhbəri Qalkinin "Paşa" ləqəbli qatil haqqında dəqiq təsviridir...

Təbii ki, tüfeyli həyat sürən bir cani bu qədər genişmiqyaslı talanları, qətlləri törədə, təkbaşına planlaşdırıb həyata keçirə bilməzdi...

Eduard Qriqoryan çirkin oyunun yalnız üzdə görünən "qəhrəman"ı idi... Əslində isə o, hadisələrin arxa planında olan yüksək dairələrdə əyləşən erməni millətçilərinin maşası idi...

Hazırkı istintaqla birmənalı olaraq müəyyən edilmişdir ki, Eduard Qriqoryan və qardaşları Dağlıq Qarabağdan olan "Krunk"un emissarları ilə əlaqə saxlamış, onlardan əslən qarabağlı olan, erməni separatizmini qəbul etməyən, fonda pul keçirməyən ermənilərin ünvanlarını götürmüş, habelə xüsusi həblər və spirtli içkilər əldə etmək üçün pul almış, sonra cinayət meyilli azərbaycanlı qonşuları ilə ümumi dil tapmış, onları iğtişaşlara cəlb etmişlər. Mənəvi cəhətdən yetkin olmayan gənc azərbaycanlılar Qarabağa erməni iddialarına qarşı keçirilən dinc mitinqlərə aparılaraq Qafandan gəlmiş soydaşlarımız kimi təqdim olunmuş, ermənilərin orada dinc azərbaycanlıları qırdıqlarını, özlərinin isə bir maşın meyit gətirdiklərini iddia edərək mitinq iştirakçılarını ermənilərdən intiqam almağa çağırmışlar. Daha sonra Sumqayıtda yaşayan ermənilərin ünvanları paylanmış və Eduard Qriqoryanın başçılığı ilə 100 nəfərə yaxın adam ermənilərin mənzillərini talan etməyə girişmişdir.

### "Krunk" Sumqayıtda erməni mənafeyini güdməyən erməniləri öldürmüşdü...

Hadisələrin bu cür təşkili və ermənilərin öz həmmillətlilərinin qatilinə çevrilmələri "Daşnaksütyun" partiyasının nizamnaməsinin ana xəttini yada salır: "Erməni mənafeyini güdməyən ermənilər erməni xalqının ümumi işi naminə qurban gedə bilərlər".

Plan da elə bu xəttə uyğun qurulmuşdu: ermәniləri birləşdirən "Krunk” cəmiyyətinin Sumqayıtdakı üzvləri bəladan qorunmalı, o cəmiyyətə qoşulmayanlar vəhşicəsinə öldürülməli idi.

Hadisələr zamanı 3 nömrəli mənzil istismar sahəsində pasport qeydiyyatçısı işləyən Laura Lalayan "Krunk” cəmiyyətinə üzv olmaqdan imtina edən ermənilərin siyahısını hazırlamışdı. Elə əsas təxribatlar da həmin siyahıya uyğun törədilirdi. Əgər beşmərtəbəli evin birinci və ikinci mərtəbəsindəki erməni ailələrinə toxunulmayıb birbaşa beşinci mərtəbəyə, yəni "Krunk”a üzv olmayanlara hücum olunurdusa, deməli, hər şey ölçülüb-biçilmişdi, əməliyyat planlı aparılmışdı. Qanlı əməllərini bacardığı qədər nümayişkaranə həyata keçirməyə çalışan "Paşa” ləqəbli erməni Eduard Qriqoryan isə açıq və gizli tapşırıqların icraçısı idi.

1988-1993-cü illərdə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt şöbəsinin rəisi vəzifəsində çalışan, hazırda təqaüddə olan polkovnik Vladimir Lebedev müsahibəsində Sumqayıt iğtişaşlarında tez-tez adları keçən naməlum "qara plaşlılar”ın kimliyinə dəqiq aydınlıq gətirərək deyir: "Sumqayıtda yerli agenturanın verdiyi məlumata görə, hadisələr ərəfəsində Yerevandan Qriqoryanın yanına iki emissar gəlmişdi. İkisi də qara plaş geyinmişdi. Bu, bir növ işarə, parol idi. Onlar uzaqdan biri-birini tanıyır, birgə hərəkət edirdilər. Biz həmin geyimlərlə çox maraqlandıq. Əlimizə şəkillər keçdi. Onları Moskvaya ekspertizaya göndərdik. Bizə belə bir məlumat verdilər ki, NKVD-nin arxivində həmin qara plaşlardan var. O plaşları 1943-cü ildə alman faşistləri onlara qulluq edən xüsusi təyinatlı ermənilərə vermiş və təxribat törətməyi tapşırırmışlar. Fikrimi belə bir məntiqlə yekunlaşdırmaq istəyirəm ki, ermənilər müharibə illərində sovetlərin tərəfində yox, faşistlərin tərəfində daha çox canfəşanlıq göstərmişlər...”

**1000-dək erməni əmanət kassalarından təcili olaraq pullarını çıxarmış və...**

Faktlar sübut edir ki, Sumqayıt hadisələrində öldürülən ermənilər Qarabağ komitəsi ilə əməkdaşlıqdan imtina edənlər idi və onların ölümü çoxdan "Krunk” tərəfindən planlaşdırılmışdı. Hansı binaya, hansı mənzilə soxulmaq, hətta hansı metodla öldürmək belə əvvəlcədən dəqiqliklə hazırlanmışdı. Həmin təşkilatla gizli-gizli əməkdaşlıq edənlər isə hər an himayə olunmuşdular. Onlar hadisələrdən əvvəl əmanət kassalarında olan pullarını da asanlıqla çıxara bilmişdilər. Sumqayıtda yaşayan 1000-dək erməni 1988-ci il yanvar ayının 1-dən fevralın 25-dək əmanət kassalarında saxladıqları 8 milyon 343 min 691 rubl pulu təcili çıxararaq Yerevana, Xankəndiyə və Rusiyanın ayrı-ayrı şəhərlərinə köçüb getmişdi. Qısa zamanda onlar nəinki canlarını, hətta əmanətlərini də sığortalamağa və xilas etməyə macal tapmışdılar. Maraqlıdır ki, axı nə səbəb ola bilərdi ki, Sumqayıtın daimi erməni sakinləri, sosial təminatları yerində olanlar niyə birdən-birə hamısı eyni zamanda bu addımı atıblar...

Bu faktı 1988-ci ildə Əmanət Bankının Sumqayıt şəhər şöbəsinin rəhbəri olmuş Mehdi Mehdiyev də təsdiq edib: "1987-ci ildən pulları çıxarmağa başlamışdılar, lakin biz onu sezmirdik. Biz əsasən fevral ayında sezdik. Fevral ayında pulları sürətlə çıxardılar. Burada artıq Respublika Bankından da Sumqayıtda birdən-birə göstəricinin aşağı düşməsilə maraqlandılar”.

Sonradan aparılan istintaq zamanı üzə çıxıb ki, Sumqayıtda bir çox ermənilər mal-mülklərini öncədən Rusiyaya çıxardıqdan sonra öz evlərini yandırıblar. Həmin ermənilər özləri də etiraf ediblər ki, bu addımı kompensasiya almaq məqsədilə atıblar. Həmçinin çoxsaylı şahidlərin ifadələrindən məlum olur ki, hadisə ərəfəsində tanıdıqları ermənilər tələsik Sumqayıtı tərk ediblər və bunun səbəbini isə belə izah ediblər ki, tezliklə burada qarışıqlıq olacaq...

Digər tərəfdən, müəyyən olunmuşdur ki, Sumqayıt hadisələri ərəfəsində Ermənistandan və Dağlıq Qarabağdan Sumqayıt və Bakı şəhərlərinə çoxlu sayda milliyyətcə erməni olan şübhəli şəxslər gəlmiş, onların bir qismi mehmanxanalarda yığcam yerləşdirilmişdir. Həmin şəxslər Sumqayıtda yaşayan ermənilərlə çoxsaylı görüşlər keçirmiş, onları təlimatlandırmış, baş vermiş kütləvi iğtişaşlardan dərhal sonra isə yoxa çıxmışlar...

**Onlarca erməni azərbaycanlılar tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilib**

Heç şübhəsiz, faktlar da təsdiq edir ki, Sumqayıt hadisələri qabaqcadan düşünülmüş, planlı bir aksiya idi. Qeyd etmək yerinə düşər ki, Sumqayıtda həmin dövrdə 18 min nəfərə yaxın erməni yaşadığı halda

cəmi 26 ermənininin öldürülməsi faktı azərbaycanlıların öz erməni qonşularını müdafiə etmələri və gizlətmələri nəticəsində mümkün olmuşdur.

Cinayət işinin materialları bir daha göstərir ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat sxeminə uyğun olaraq daha geniş miqyas alardı. Milliyyətcə erməni olan şahidlərin ifadələrindən də görünür ki, onlarla erməni hadisələr vaxtı azərbaycanlı ailələr tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilib...

**Yasəmən Musayeva,**
**"Azərbaycan" qəzeti. - 2020- ci il. - 28 fevral. - S.7**

**1988-ci ili xatırlayarkən...**

***Danışır Sumqayıt hadisələrinin şahidləri***

1988-ci ilin fevralında Xankəndidə erməni millətçiləri kütləvi mitinqlər keçirirdi. Onlar SSRİ və Ermənistan SSR rəhbərliyindən tələb edirdilər ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibindən çıxarılıb, Ermənistan Respublikasına qatılsın. Bu, antikonstitusion bir tələb idi. Bakıda, Sumqayıtda və Azərbaycanın ayrı-ayrı bölgələrində ermənilərin haqsız tələblərinə qarşı etiraz dalğası gücləndi. Azərbaycan torpaqlarının toxunulmazlığı rəsmi şəkildə elan olundu.

Sumqayıt 70 il ərzində çətin, lakin şərəfli bir yol keçib. Burada belə sual doğur: Yaxşı, vaxtı ilə "dostluq" şəhəri adlanan, özündə 82 millətin və etnik qrupun nümayəndəsini birləşdirən, daşı daş üzərinə birlikdə qoyub böyük və nəhəng bir şəhər salan, beynəlmiləl bir ailədə yaşayan insanlar 1988-ci ilin fevral ayının 28-dən 29-na keçən gecə bir qrup ekstremistin əli ilə Sumqayıtda qanlı aksiyanın törədilməsinə necə razı ola bilərdilər? Dostluğa xəyanət edən kim oldu? Dağlıq Qarabağ problemini ortaya kim atdı? Hadisələrə təkan verən, təlimatlandıran, maddi vəsait ayıran qüvvələr kimlər idi?

Bu suallar ətrafında xarici dövlətlərdə müxtəlif fikirlər dolaşmaqdadır. Ermənipərəst kütləvi informasiya vasitələri öz uydurma cızma-qaraları ilə indi də oxucuları çaşdırır, guya Sumqayıtda ermənilərə qarşı "genosid"in olmasını sübut etmək istəyirlər.

Ciddi araşdırmalar göstərir ki, bu hadisələrin əsl səbəbləri nə Sumqayıtla, nə də sumqayıtlılarla bağlı olmamışdır. Çünki vahid bir ailədə sülh və əmin-amanlıq şəraitində yaşayan azərbaycanlılar, ermənilər və həmçinin digər millətlərdən olan sumqayıtlılar arasında hər hansı bir ictimai-siyasi, milli-etnik və ya dini mənsubiyyətlər zəminində ədavət olmamışdır. Sumqayıtda baş verən hadisələrin kökləri daha dərin, miqyası daha böyükdür və bu hadisələr iki millət arasında "xuliqanlıq" hərəkətlərindən daha çox, qeyd etdiyimiz kimi, siyasi xarakter daşıyırdı.

Sumqayıt şəhər 3 saylı xəstəxananın stasionar şöbəsinin müdiri Vaqif Qəhrəmanov 1988-ci ildə baş verənlərə belə aydınlıq gətirir:

- 1987-ci ilin sonu, 1988-ci ilin əvvəllərində keçmiş Sovetlər İttifaqında həmin vaxtadək görünməmiş proseslər cərəyan edirdi. Milli münasibətləri kəskinləşdirmək, xalqlar arasında nifaq, təfriqə yaratmaq və bundan öz xeyrinə istifadə etmək sahəsində böyük təcrübəyə malik ermənilər digər xalqların torpaqlarını işğal etməkdə, mənimsəməkdə özlərinin nə qədər xəbis niyyətli olduqlarını Dağlıq Qarabağ münaqişəsində bir daha əyani şəkildə göstərdilər. 1988-ci ildə baş vermiş Sumqayıt hadisələri eyni zamanda gələcəkdə Azərbaycan ərazilərinin işğalını ört-basdır etmək məqsədi güdürdü.

Mən ali məktəbi bitirdikdən sonra Orta Asiyaya təyinat aldım. Orada işlədiyim müddətdə bir dəfə də olsun ermənilərin nəsə edəcək gücündə olduqlarını görmədim. Sonra Azərbaycana gəldim. Sumqayıt şəhərində həkim kimi çalışmışam. 1981-1995-ci illərdə Sumqayıt Səhiyyə Şöbəsinin müdiri olmuşam. İşlədiyim zamanda bizim ermənilərlə heç bir problemimiz yaşanmayıb. Bircə onu deyim ki, onların hər birinin evində telefon vardı. Demək olar ki, Sumqayıtda işsiz erməni yox idi. Özləri də yaxşı bənna, zərgər və maşın ustaları idi.

Yaxşı xatırlayıram, qarşıdurma baş verdikdən dərhal sonra şəhərdə tibb işçilərindən ibarət xüsusi qərargah yaradıldı. Təcili tibbi yardım maşınları yaralıları xəstəxanalara daşıyırdı. Bizə məlum oldu ki, yaralanan, ölən ermənilərin hamısı Qarabağ əsillilərdir. Həmin dövrdə Xankəndidə mitinqlər təşkil olunurdu. Ermənilər bunu həmin aksiyaların miqyasını genişləndirmək üçün edirdilər. Məqsəd hamımıza aydın oldu.

Məlum oldu ki, bu işlərin çoxunun başında elə ermənilərin özləri dayanır. Bir məsələni xüsusi qeyd etmək istəyirəm - həmin dövrdə Hacı Zeynalabdin Tağıyev qəsəbəsində hərbi qarnizon vardı. Sumqayıtda yaşayan ermənilərin çoxu orada məskunlaşmışdı. O zaman tibb işçiləri əraziyə gəldikdə məlum olur ki, orada olan xəstə bir uşağı ermənilər özləri öldürmək istəyirlər. Onlar bununla həmin qətlin guya azərbaycanlılar tərəfindən törədildiyini dünyaya çatdırmaq istəyirdilər. Tibb işçiləri həmin uşağı nəzarət altına aldılar. Sumqayıtda uşaq ölümünün olmamasına görə isə onları Ermənistanda çox incitmişdilər. Bu mənfur insanlar öz məqsədlərinə çatmaq üçün günahsız körpəni belə qətlə yetirməkdən çəkinmirdilər.

Ermənilərin öz həmyerlilərinə qarşı törətdiyi qətliamın qarşısını azərbaycanlılar alırdı. Bir faktı nəzərə çatdırım: 45-ci məhəllədə bir erməni ailəsi qonşusunun evində gizlənir. Oraya hücum edənlərə qapını azərbaycanlı açır. Ona çox təpki gəlirlər ki, bu sənin evin deyil. Amma azərbaycanlı qətiyyətlə

onun evi olduğunu bildirir. O zaman bir başqası cibindən siyahı çıxarıb yanındakılara nəsə deyir və oradan uzaqlaşırlar. Hətta kənardan baxan qonşular bu adamların yerli olmadıqlarını bildirirlər. Çünki həmin məhəllənin keçidlərini onlar səhv salmışdılar.

Bir olay da yaddaşımdan silinmir. 8-ci mikrorayonda ərzaq mağazasında Lena Kasparyan adlı bir qadın işləyirdi. Həmin şəxs azərbaycanlılarla qaynayıb qarışmışdı. Fevralın 27-də onun oğlu yaşadığı mənzildə ölü tapılır. Lena ağlayaraq deyirdi ki, ermənilərin cəmiyyətinə üzv olmadığıma görə məni belə cəzalandırdılar.

Həmin hadisələrin şahidi kimi bir faktı da söyləmək istərdim. İğtişaşları törədənlər bunu açıq-aydın şəkildə həyata keçirməkdən çəkinmirdilər. Onlar bunu kiməsə sübut etmək üçün edirdilər. Məhz həmin günlərdə onlarla erməni ailəsi öz "ermənilərindən” xilas olmaq üçün azərbaycanlı ailələrinə sığınaraq sağ qaldılar. Ermənilər düşünülmüş, öncədən planlaşdırılmış Sumqayıt hadisələrindən uzun müddət yararlandılar. Təxribatları törədənlər qətllərin kimlər tərəfindən həyata keçirildiyini özləri də gözəl bilirlər. Əgər Sumqayıt hadisələri törədilməsəydi, Xankəndidə mitinqlər səngiyəcəkdi və daşnakların planları alt-üst olacaqdı.

Sumqayıtda yaşayan alman əsilli Valentina Rəhimova həmin günləri belə xatırlayır:
- Fevralın 25-i şəhərdə söz-söhbət gəzirdi ki, Xankəndidən gələn ermənilər nəsə planlaşdırırlar. Bir çox valideynlər öz uşaqlarını çöldən evə çağırır, bayıra buraxmırdılar. Amma sakitlik idi. Biz, kənardan baxanlar isə hansısa bir hadisənin baş verməsinə inanmırdıq. Demə, bu sakitlik özü növbəti bir təxribatın kökü imiş.

26-27 fevralda yaşadığımız mikrorayona kimlərsə gəlir, nəyisə qeydiyyata alırmış kimi davranırdılar. Demə, həmin şəxslər ərazinin giriş-çıxışını öyrənirlərmiş. Eyni zamanda, ermənilərin hansı binada yaşadıqlarını da dəqiqləşdirmişlər. Onu da deyim ki, heç nə soruşmur, sadəcə əllərində olan kağıza uyğun hərəkət edirdilər. Nə qədər Azərbaycan dilində rahat danşsalar da, onların kənardan gəldiyi bilinirdi. Çünki şəhərimiz kiçikdir, burada az adam tapılardı ki, mikrorayonlar barədə məlumatsız olsun.

Qonşuluqda yaşayan ermənilərlə çox yaxın olmuşam. Onların hamısı zavodlarda çalışan, öz zəhmətləri ilə dolanan adamlar idi. Rima adlı bir qadın həmin günü mənə dedi ki, beşinci mərtəbədə yaşayan erməninin qapısına üç-dörd yerdən işarə çəkilib. Həmin erməni ailəsinin həyətdə heç kəslə münasibəti yox idi. Səbəbini məndən soruşanda cavab verə bilmədim. Özü də qonşuluqdakı erməni ailələrinin çoxunun övladları bizim uşaqlarla dost idilər. 26-sı axşam sakit keçdi. Səhəri günü Rimanın qızı, adını unutmuşam, bizim qapını döyüb dedi ki, anam deyir çölə çıxsın. Aşağı düşəndə Rima həyəcanlı halda mənə söylədi ki, oğlunu tanımadığı bir erməni dünən yolda saxlayıb. Uşağa deyib ki, sabah sizin həyətə gələndə eşikdə ol, bizə ermənilərin yaşadığı mənzilləri göstər. Uşaq da qorxusundan onun yanından aralanıb tez evə qaçıb. O qadın məndən soruşdu ki, görəsən o erməni bizim yaşadığımız mənzilləri niyə soruşub ki?! Sözün düzü, heç nə anlamadığım üçün bir söz deyə bilmədim.

Bizim şəhərin insanları zəhmətkeşdir. Sonradan öyrəndim ki, mikrorayonumuzda qalan erməni ailələri fevralın 27-dən azərbaycanlıların evlərində gecələyiblər. Sumqayıtda hadisələr törənəndə həmin ailələrin mənzilləri talan edildi. Talanda iştirak edənlər Yerevan ləhcəsində təhqiramiz sözlər danışırdılar. Bunu da mənə sonradan həmin erməni qadın danışdı. O dedi ki, onları bugünədək şəhərdə görməyib.

**Akif Əliyev,**
**"Azərbaycan”qəzeti. - 2020-ci il. - 28 fevral. - S. 7.**

**Sumqayıt hadisələri şahidlərin gözü ilə**

*32 il öncə, fevral ayının son günlərində Sumqayıtda baş vermiş kütləvi iğtişaşlar hələ də erməni ideoloqlarının millətimizə qarşı yeritdikləri şər və böhtan kampaniyasının əsas komponentlərindən biri kimi qalmaqdadır. Artıq çoxdan sübut olunub ki, həmin hadisələr Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılmasını reallaşdırmaq məqsədilə Ermənistan və SSRİ xüsusi xidmət orqanları tərəfindən hazırlanaraq törədilmiş təxribat idi.*

...Həmin günlər mənim doğma şəhərimdə şaxta iliyə işləyirdi. Avtovağzal, univermaq və bazarətrafı ərazilərdə isə ictimai-siyasi ehtiraslar saatbasaat qızışırdı. Şəhərin ictimai asayiş şkalası kəlləçarxda idi. Mən də bir kənarda dayanıb qızğın debatları, əsəbi polemikaları izləyirdim. Vətəndaşları itaətsizliyə, qisasa səsləyən təxribatçılar guya min zülmlə Ermənistanın Qafan, Masis rayonlarından qovulduqlarını söyləyir, “Qana-qan, ölümə-ölüm!” deyib hayqırırdılar. Camaatın çoxu onlara inanırdı, cavanlarsa daşla, dəmirlə silahlanıb ermənilərin üstünə hücum çəkməyə hazır idi. (Sonradan məlum oldu ki, sən demə, bu “alovlu tribunlar” Azərbaycan dilində təmiz danışa bilən peşəkar erməni təhrikçilərmiş). Mixail Qorbaçovun açıq-aşkar ayrıseçkilik siyasətindən, ermənipərəst mövqeyindən, Stepanakertdə baş verən antiazərbaycan mitinqlərinə ikibaşlı münasibətindən qəzəblənən kütlənin səmtini şəhərin baş meydanına yönəltmək həmin “əzabkeşlər” üçün heç də çətin olmadı. Tezliklə şəhərdə çoxminli mitinqlər, xaotik qarşıdurma başlandı.

Xatırlayıram ki, təşvişə düşən rəhbərlik əvvəlcə şəhərdə fəallar yığıncağı keçirdi. Sonra Bakıdan gəlib mitinqdə sakitləşdirici çıxışlar etməyə çalışan fərsiz ideoloqlar fitə basıldıqlarını görüb aradan çıxdılar. Üç gün ərzində Sumqayıt mitinqlər dalğasında çalxandı, başıpozuq dəstələrin qorxulu reydləri son həddə çatdı. Yalnız martın 1-də, yəni iş-işdən keçəndən sonra mərkəzi hakimiyyət orqanları şəhərdə fövqəladə vəziyyət elan etdilər, komendant saatı tətbiq olundu.

Beləcə, yaz ərəfəsi uzanan gündüzlər sərt pasport rejimi sayəsində yenidən “qısaldı”. Axşam düşməmiş küçələr boşalır, şəhəri vahiməli sükunət bürüyürdü. Rusiyadan gəlmiş silahlı hərbçilər, yuxarıların buyruq qulu olan istintaq qruplarının üzvləri isə bir ucdan vətəndaşları şübhəli qismində həbsə aldırır, cəzalandırır, işgəncə verirdilər. Komendant saatını 2-3 dəqiqə pozan avtobuslar, digər minik vasitələri dərhal saxlanılır, uzun-uzadı yoxlamalar, aydınlaşdırmalar aparılırdı. Dinən, səsini çıxaran hər kəs təqsirkar sayılır, qolları burulub qərargaha və ya təcridxanaya aparılırdı…

Tarixin müxtəlif dönəmlərində Ermənistanın terrorçu təşkilatları Azərbaycan əhalisinə qarşı təxribatlar törədib, dinc əhaliyə qarşı zorakılıq aksiyaları tətbiq ediblər. Bu təxribatların növbəti məkanı da elə Sumqayıt şəhəri olub.

Ermənilər tərəfindən Sumqayıt hadisələrinə görə Azərbaycanın suçlandırılması hələ də davam etdiyi üçün artıq bir müddətdir ki, cinayətin həqiqi təşkilatçılarını məsuliyyətə cəlb etməkdən ötrü müvafiq beynəlxalq orqanlara müraciət edilməsi və bunun üçün hüquqi əsasların müəyyən olunması, qaranlıq qalan məqamların araşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən həmin cinayət işi təkrar icraata götürülüb və bu xüsusda istintaq hərəkətləri davam etdirilir.

Hadisələrin növbəti ildönümündə Sumqayıtda törədilmiş kütləvi iğtişaşların canlı şahidlərinin, şəhər ziyalılarından bir qrupunun fikirləri ilə maraqlandıq. Öncə bu hadisələrin yorulmaz tədqiqatçısı kimi tanınan Əməkdar jurnalist Eyruz Məmmədova müraciət etdik.

Eyruz Məmmədov:

– Bəri başdan qeyd edim ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra yaxın tariximizin bir sıra qaranlıq məsələləri ilə yanaşı, Sumqayıt hadisələrinə də aydınlıq gətirilib, qanlı aksiyaların səbəbləri ətraflı araşdırılıb. Biz isə zaman-zaman bu mövzuya işıq salmaqla, istəyəndə nəyisə “unudan”, istəməyəndə isə unutmayan Qərbin yenidən erməni təxribatına uymasına yol verməməliyik.

Bu hadisələrin mahiyyətinin dünya ölkələrinə çatdırılması üçün müxtəlif dillərdə kitab və broşürlər yazıb nəşr etdirmişik. Mən bir jurnalist kimi düz 32 ildir ki, Sumqayıt hadisələrinin tədqiqatı ilə məşğulam. “28-dən 29-na keçən gecə”, “Erməni təxribatı”, “Ermənilərin Sumqayıtda qanlı aksiyası”, “İyirmi ildən sonra”, “Sumqayıt sirləri: faktlar, hadisələr, şərhlər”, “Sumqayıt, 1988. Cinayət və cəza” (Ramazan Məmmədovla birlikdə) adlı kitablarım çap olunub. Bu kitablar türk, rus, alman, ingilis, ispan dillərinə tərcümə edilib. “Sumqayıtın əks-sədası” tammetrajlı, “Sumqayıtın əks-sədası-2” və 5 seriyalı “Sumqayıt” adlı sənədli filmlərin ssenari müəllifiyəm.

Zaman 1988-ci ilin soyuq fevral günlərində Sumqayıtda baş verən olayların müəyyən detallarını unutdursa da, təxribatın əsl mahiyyəti, törədilmə şəraiti, bir sözlə, səbəb və nəticələri dəyişməz qalır. Əsl həqiqət budur ki, Sumqayıt hadisələri Dağlıq Qarabağı Azərbaycandan ayırmaq istəyən ermənilərin məkrli planlarının təkanverici tərkib hissəsi olaraq törədilib.

Bildiyimiz kimi, 1988-ci il fevralın 27-29-da Sumqayıtda baş vermiş məlum hadisələrin fəal iştirakçılarından biri dəfələrlə məhkum edilmiş, milliyətcə erməni Qriqoryan Eduard adlı Sumqayıt sakini olub. Bu Edik – "Paşa" öz ətrafında küyə gedən, səbatsız gəncləri cəmləşdirib, "Ermənilərə ölüm!" kimi çağırışlarla xüsusi siyahıya əsasən erməni millətindən olan şəhər sakinlərinin evlərinə hücumlar həyata keçirib. O zaman şəhər rəhbərliyi Moskvaya ezam olunmuş, hüquq-mühafizə orqanları, necə deyərlər, ovsayt vəziyyətinə salınmışdı. Talanlar hər tərəfdə davam edirdi. Dinc sakinlər küçəyə çıxmağa ehtiyat edir, fotoqraflar şəkil çəkməyə qorxurdular. Martın 1-dən elan olunan komendant saatı rejimi isə, sən demə, erməniləri zərərdidələr kimi qələmə vermək tapşırığını almış istintaq qruplarının rahat işləyə bilmələri üçün imiş. Halbuki, suçlandırılan azərbaycanlılardan ibarət yüzlərlə ailənin erməniləri basqınçı həmlələrindən xilas edərək öz evlərində gizlətmələri ilə bağlı çoxsaylı faktlara göz yumulmuşdur. Bunu erməni milliyyətindən olan bir çox şəxslər də istintaq zamanı etiraf etmişlər. Hətta şəhərin komendantı V.Krayev Moskvada çap olunan "Pravda" qəzetinin 21 mart 1988-ci il tarixli sayındakı müsahibəsində bu barədə demişdi: "Ölüm çox ola bilərdi, əgər yerli əhali kömək etməsə idi. Bir avtobus sürücüsü elə həmin gün 10 erməni ailəsini öz doğma rayonu Şəkiyə aparıb".

Erməni yalanı ayaq tutub yerisə də, çox keçmədən Azərbaycanın hüquq-mühafizə orqanlarının fədakar əməyi sayəsində ermənilərin həyasızlığı ifşa olunmuşdur. Biz də gücümüz çatan qədər Sumqayıtın təmiz adının qorunmasına çalışmışıq.

Ramazan Məmmədov, Sumqayıt Dövlət Universitetinin prorektoru, professor:

– İllərdir ki, mən Sumqayıt hadisələrinin elmi-sosioloji tədqiqi ilə məşğul oluram. Mövzuya həsr olunmuş silsilə məqalələrim və 5 monoqrafiyam müxtəlif dillərdə nəşr edilib, respublikamızda və xarici ölkələrdə yayılmışdır.

Qısaca onu deyim ki, Sumqayıt şəhərində zərərçəkən ermənilərin əksəriyyəti "Krunk" cəmiyyətinə könüllü maddi vəsait köçürməkdən imtina edənlər olub. Şahidlərin ifadələri ilə müəyyən edilib ki, "Krunk" cəmiyyətinə pul köçürən ermənilərin evləri hücuma məruz qalmayıb. Hadisələrin icraçılarından ən fəalının erməni olması, hadisədən əvvəl Sumqayıtın bütün əmanət kassalarından ermənilərin öz əmanətlərini kütləvi şəkildə götürmələri, qırğınların videolentə alınması üçün erməni operatorlarının əvvəlcədən hadisələrin planlı şəkildə törədiləcəyi yerlərdə özlərinə xəlvəti çəkiliş mövqeyi seçmələri, çox teziklə həmin lentlərin montaj edilərək bütün dünyanı dolaşması və digər bu kimi faktlar sübut edir ki, Sumqayıt hadisələri Ermənistan və SSRİ xüsusi xidmət orqanları tərəfindən hazırlanaraq törədilmiş təxribat idi.

Sumqayıtın yaşlı və orta nəslinin nümayəndələri şəhərdə erməni millətçilərinin xaricdə yaşayan havadarlarının, "Daşnaksutyun" partiyasının dəstəyi ilə necə qanlı aksiya törətdiyini yaxşı xatırlayırlar. O vaxt ölkədə "yenidənqurma" siyasəti elan edən Mixail Qorbaçovun "islahat"larından biri də millətlərarası ədavəti qızışdırmaq, xaos yaratmaq idi. Dağlıq Qarabağ məsələsi qaldırılan zaman Qorbaçov ermənilərə hər cür kömək göstərəcəyini vəd etmişdi. Şovinist Aqanbekyanın Parisdəki məlum çıxışı hadisələri alovlandıran ilk qığılcım oldu.

Sumqayıtda baş verən hadisələrlə bağlı apardığımız araşdırmaların nəticələri professor Həsən Sadıqovla birgə yazdığım "Sumqayıt: milli əsarət, ya milli səxavət?" və Əməkdar jurnalist Eyruz Məmmədovla mənim həmmüəllifi olduğum "Sumqayıt, 1988. Cinayət və cəza" kitablarında əksini tapıb. O dövrdə "Krunk" adlı erməni təşkilatı fəaliyyət göstərirdi. Demək olar ki, bütün qatı millətçilər oraya toplaşmışdılar. Təşkilatın yeganə məqsədi Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan ayırıb Ermənistana birləşdirmək idi. Bu məqsədlə ermənilərdən kütləvi şəkildə pullar yığılırdı. Sumqayıt ermənilərinin qarşısında da belə bir tələb qoyulmuşdu.

Təkcə bir ayda Sumqayıt bankından 1 milyon rubla yaxın pul çıxarılmışdı. Ermənilər faktları qətiyyətlə inkar etməyə çalışsalar da, həqiqət dəyişməz olaraq qalır. Belə ki, müttəhimlər kürsüsünə Eduard Qriqoryan adlı erməni də çıxarılmışdı. O erməni ki, ilk olaraq beş nəfəri qətlə yetirmiş və bununla da insanları kütləvi iğtişaşlara təhrik etmişdi. Yeri gəlmişkən, araqarışdıranlar təkcə insanları

öldürməklə kifayətlənmir, hadisələrin miqyasını böyütmək üçün evlərə hücum çəkir, avtomobilləri yandırır, ticarət obyektlərini qarət edirdilər.

Fevralın 27-də Sumqayıta daxil olan təxribat qrupunun üzvləri əhali arasında ekstremist ruhlu təbliğat aparırdılar. Şəxsən şahidəm ki, bu naməlum şəxslər özlərini Ermənistandan qovulmuş azərbaycanlılar kimi qələmə verir, ermənilərin onlara necə divan tutduqlarından "yana-yana" danışırdılar. Qızışdırıcı, təxribat ruhlu söhbətlər təsirsiz qalmadı. Şəhərdəki qeyri-sağlam qüvvələr, xüsusən də dəliqanlı gənclər meydana toplaşdılar və Sumqayıtda yaşayan ermənilərə divan tutmaq çağırışları səsləndi. Şəhərin "başbilənləri" əhalini şayiələrə uymamağa, təmkinli olmağa çağırsalar da, artıq gec idi, düşmən öz işini görmüşdü.

Həmin günlər Sumqayıt şəhərinin rəhbərliyi məzuniyyətə göndərilmiş, milis rəisi işdən azad edilmiş, DTK şəhər şöbəsinin rəisi isə başqa işə keçirilmişdi. Şəhəri sanki bilərəkdən başsız qoymuşdular. Fevralın 28-də Sumqayıtda iğtişaşlar daha geniş miqyas aldı. İtaətsizlik baş alıb gedirdi. Bütün bunlar hadisələrə əvvəlcədən ciddi hazırlıq görüldüyündən və nəzarətdə saxlanıldığından xəbər verir. Sübut və dəlillər hadisənin ssenarisinin DTK divarları arasında hazırlandığını açıq-aydın göstərir. Respublika Baş Prokurorluğunun apardığı istintaqla müəyyən edilib ki, o vaxt Sumqayıt şəhərində yaşayan ermənilərin əksəriyyəti kütləvi iğtişaşların baş verəcəyindən əvvəlcədən xəbərdar olub. Belə ki, aparılan əlavə istintaq zamanı Sumqayıt şəhərində yaşayan 100-dən çox ailənin hadisələrə qədər əmanət kassalarından pullarını götürüb, şəhərdən köçüb getdikləri müəyyən edilib. Onların əksəriyyəti imkanlı ailələr idi. Həmin ərəfədə intensiv beynəlxalq telefon əlaqələri də ermənilər tərəfindən yaradılıb. İstintaq onu da müəyyənləşdirib ki, Ermənistanın xüsusi xidmət orqanlarının əməkdaşları Bakı və Sumqayıt şəhərlərinə gələrək ermənilərlə görüşüb, gizli söhbətlər aparıblar. Beləliklə, süni yaradılan təxribat ocağı bilərəkdən vaxtında söndürülməyib. Bu hadisənin Dağlıq Qarabağı Azərbaycanın tərkibindən qoparmaq üçün düşünüldüyü artıq təkzibolunmaz faktdır.

Əvəz Mahmud Lələdağ, "Tərəqqi" medallı pedaqoq, yazıçı-dramaturq:

– Mən yarım əsrdən çoxdur ki, müəllimlik fəaliyyəti ilə məşğulam. Bizim millətimiz kimi ürəyi təmiz, saf, sözə tez inanan millət tanımıram. Özüm əslən Sisyandan olduğuma görə ermələrin də iç üzünə yaxşı bələdəm. Onlar kimi yalançı, üzə duran, şər-xata, nankor, yeri gələndə özünü zavallı, zərərçəkmiş kimi göstərməyi əla bacaran millət yer üzündə yoxdur. Dünya da onları artıq bu xislətlərinə görə tanıyır. Ermənilərsə öz çirkin əməllərindən əl çəkmirlər.

Artıq Rusiya və digər ölkələrdə nəşr olunan mətbuat orqanlarında və kitablarda Sumqayıt hadisələrinin erməni millətçiləri və sovet rəhbərliyinin əməli olduğunu bildirən yazılara, qeydlərə rast gəlmək olur. Məsələn, vaxtilə SSRİ DTK sədrinin 1-ci müavini olmuş Filip Bobkovun xidməti istifadə üçün yazmış olduğu "KQB i vlast" kitabında bununla bağlı açıq etiraflar yer alıb. Litvalı müəllif Gintaras Visotskasın "Sumqayıt detektivi" adlı məqaləsində iğtişaşlarda Kremlin və ittifaq DTK-sının birbaşa əli olduğu təkzibedilməz faktlarla açıqlanır. İsrailə köçmüş bir bakılı yazar Tel-Əvivdə çıxan həftəlik "Kruq" qəzetində dərc etdirdiyi "Bakı gündəliyi"ndə yazırdı: "Keçmiş həmvətənim olan qadın etiraf edirdi ki, Sumqayıt azərbaycanlıların erməniləri qəhrəmancasına qoruduqları şəhərdir. Qətllərə, əlbəttə, ermənilər rəvac vermişdilər. Tutulanların işinə isə qəsdən Rusiyanın məhkəmələrində baxılıb ki, çirkin niyyətlər ört-basdır edilsin". Moskvada çıxan "Novoye vremya" sovet həftəliyi "Blokada" adlı məqaləsində yazlrdı ki, oxucuların fikrincə, Sumqayıtda milli zəmində talanlar olmayıb. Təxribat məqsədilə erməniləri elə özlərininkilər öldürüblər. Təbliğat nəşri olan "İki il çəkən faciə" fotoalbomunda isə Qarabağ münaqişəsinin xronologiyasına dair belə bir qeyd yer alıb: "27-29 fevral. Bilavasitə erməni ekstremistlərinin iştirak etdikləri Sumqayıt talanları və kütləvi iğtişaşlar". Rus yazıçısı Aleksandr Çekalin "Ekonomiçeskaya qazeta"da dərc etdirdiyi "1983-1993-cü illərdə SSRİ-yə kənardan vurulan 100 zərbə" məqaləsində Sumqayıt hadisələrini 17-ci sırada göstərib. İsveçdə yaşayan erməni siyasi xadim və yazıçı Vaqe Avetyan özünün sensasion fikirlərilə soydaşlarının iç üzünü ortaya qoyub. Sumqayıt hadisələrinin ildönümü ərəfəsində o bildirib ki, həmin dövrdə yaşanan hadisələri azərbaycanlılar deyil, SSRİ rəhbərliyi ermənilərin köməyilə həyata keçirib. "Ermənilər Qarabağı qonşularından alıb dünyaya göstərmək istədilər ki, necə ağıllı, qədim keçmişə malik xalqdırlar. Eləcə də demək istədilər ki, azərbaycanlılar necə pis xalqdır", -deyə erməni yazıçı bəyan edib. Ermənilərin qəsbkarlıq planları ilə bağlı onun fikirləri mütəmadi olaraq mətbuatda dərc edilir.

Bildiyimizə görə, hadisələr ərəfəsində 100-dən çox saqqallı və meşin gödəkçəli erməni ekstremisti təxribatı təşkil etməkdən ötrü Sumqayıta göndərilib. Onlar şəhərin "Dalğa" və "Sumqayıt"

mehmanxanalarında gecələyiblər. Emissarlar əhali arasına gedərək çıxışlar edib və gəncləri qisasçılıq hərəkətlərinə qızışdırıblar. Lenin meydanındakı mitinqdə Qafan "qaçqınları"nın, Sumqayıt şəhəri və respublika rəhbərlərinin "izahat məlumatı" qəzəblənmiş kütləni sakitləşdirə bilməyib.

Hadisələrin sabahı günü qatı millətçi yazarlar Sero Xanzadyan, Zori Balayan və Silva Kaputikyan Moskvada M.Qorbaçovla görüşmək imkanı əldə etmişdilər. Elə bu görüşlərin nəticəsi olaraq Azərbaycanda kütləvi həbslər başlanıb. 400-dən çox adam həbsxanalara atılıb. Günahsızlar işgəncələrə, təqiblərə məruz qalıblar. Amma hadisələr zamanı azərbaycanlıların da zərər çəkdiyini yada salan olmayıb. Ermənilər deyir ki, Sumqayıtda bir azərbaycanlının da burnu qanamayıb. Halbuki, döyülüb-söyülən, şikəst edilib-öldürülən soydaşlarımız da olub. Altı nəfərsə BTR təkərlərinin altında qalaraq həyatını itirib. İğtişaşları müşahidə edənləri təəccüb bürüyürdü ki, nə üçün milis və ordu dəstələri olayları müşahidəçi qismində izləyir, heç bir tədbir görmürlər?

Xaricdəki ermənilər hələ 1980-ci illərin əvvəllərində Ermənistan rəhbərliyindən Dağlıq Qarabağın ilhaqı məsələsini qaldırmağı tələb edirdilər ki, gələcəkdə milli sərvətləri ələ keçirib oraya sərmayə yatırsınlar. Qorbaçov hakimiyyətə gələndən sonra ermənilər Dağlıq Qarabağ məsələsini qaldırdılar. Məqsəd həm SSRİ-ni dağıtmaqda Qorbaçova kömək etmək, həm də Dağlıq Qarabağı Azərbaycanın tərkibindən alıb, Ermənistana qatmaq idi. Erməni oliqarxları Qarabağı özlərinin biznes mərkəzinə çevirmək və kapitallarını artırmaq istəyirdilər. Siz inanmazsınız, onların bu işə ayırdığı vəsait sovetlər birliyində olan hər hansı bir respublikanın illik büdcəsindən çox idi.

Sumqayıtda 32 nəfər qətlə yetirilib. 94 nəfər məhkəmə qarşısında cavab verib, müxtəlif cəzalar alıb. Bir nəfərə isə ölüm hökmü kəsilib. Dörd il sonra ermənilər tərəfindən Xocalıda 600 nəfərdən çox azərbaycanlı qətlə yetirilsə də, hələ bir nəfər cinayətkar belə məhkəmə qarşısında dayanmayıb. Budurmu, haqq-ədalət?..

Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdə mən də iştirak edirdim. "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olundum. Həmin tədbirdə dövlətimizin başçısı öz nitqində Sumqayıt hadisələrinin mahiyyətini bir daha açaraq bəyan etdi ki, bu, ermənilərin öz əməlidir. On nəfərə yaxın ermənini öldürən bir qatil Ermənistan rəhbərliyi tərəfindən ona görə azadlığa buraxılıb ki, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edilərək Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağ münaqişəsinə start verilmişdir.

Bəli, 32 il əvvəl törədilmiş iğtişaşlardan bu gün də öz mənfur niyyətləri üçün hiyləgərcəsinə istifadə etməyə çalışan ermənilərin yalanları beləcə davamlı şəkildə ifşa olunmalı, onların iyrənc təbliğat üsullarının qarşısı qətiyyətlə alınmalıdır.

**Əli Nəcəfxanlı,**
**"Xalq qəzeti". - 2020-ci il. - 28 fevral. - S. 9**

## Sumqayıt hadisələri SSRİ DTK-nın hazırladığı planın tərkib hissəsi idi

XX əsrin sonlarında Dağlıq Qarabağın Azərbaycandan ayrılmasını, tarixən Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlıların doğma torpaqlarından zorakılıqla və kütləvi qovulmasını, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü və işğalçılıq siyasətini həyata keçirmək məqsədilə atacaqları digər zorakı addımlarını "əsaslandırmaq" üçün anti-Azərbaycan kampaniyasını həyata keçirən Ermənistan rəhbərliyi, erməni millətçiləri, siyasi ideoloqları və terror təşkilatları 80-ci illərin ikinci yarısında hərəkətə keçdilər. Məhz Sumqayıt hadisələri də erməni millətçilərinin Dağlıq Qarabağı işğal etmək üçün məqsədyönlü şəkildə işləyib hazırladıqları məkrli planın tərkib hissəsi idi. Bu hadisələr ermənilərin Azərbaycan torpaqlarını zəbt etmək üçün hələ xeyli əvvəl başladıqları planın ideoloji əsaslarını qoymaqla, sonradan siyasi-hərbi mərhələyə keçidin başlanğıcı oldu.

Məlum olduğu kimi, bütün dövrlərdə Dağlıq Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılmışdır. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdır. Z.Balayanın Azərbaycan xalqının əleyhinə və erməni millətçiliyi ruhunda yazıldığı, Yerevanda 100 min tirajla çap olunan "Oçaq" kitabı Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işini daha da gücləndirmişdi.

1986-cı ilin fevral ayında ermənilər SSRİ-də irəli sürülən "aşkarlıq" və "demokratiya" ideyalarından istifadə edərək, Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) mərkəzində – Xankəndidə tarix və mədəniyyət abidələrini qorumaq bəhanəsi ilə "Krunk" adlı təşkilat yaratdılar. Ancaq sonradan məlum oldu ki, "Krunk" sözü rus dilində "Комитет Революционного Управления Нагорного Карабаха" sözlərinin baş hərflərindən yaranmışdı . Təşkilatın əsas məqsədi isə tarixi abidələri qorumaq yox, DQMV-ni Ermənistana birləşdirməyə nail olmaq idi.

Artıq 1987-ci ilin iyun-iyul aylarında ermənilər Xankəndinin küçələrində Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün təbliğat apararaq, bu istiqamətdə vərəqələr yayırdılar. Ayrı-ayrı adamların İttifaq rəhbərliyinə yazdıqları məktublar bu dövrdə müxtəlif kollektivlərdən imzalar toplanması kampaniyasına çevrildi və ərazi iddialarının yeni mərhələsinin təməli qoyuldu. Bu hərəkatın əsas aparıcı qüvvəsi olan "Krunk" təşkilatı da gizli, eyni zamanda, geniş fəaliyyət göstərirdi. İlin ikinci yarısında Yerevandan müntəzəm olaraq Xankəndiyə gələn emissarlar ermənilər arasında fəal iş apararaq, xüsusi imzalar toplamaqla Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək ideyasını təbliğ edirdilər.

1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin I müavini Heydər Əliyev vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibə verərkən DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Onun verdiyi müsahibə noyabrın 18-də "L'Humanite" qəzetində dərc olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

1988-ci il fevralın 8-də erməni millətçiləri Xankəndində DQMV-nin Azərbaycan SSR-dən ayrılıb Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə yeni imza toplanması kampaniyasına başladılar və ayın 12-də DQMV-də gizli fəaliyyət göstərən millətçi "Krunk"un təşkilatçılığı ilə ermənilər DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndidə ilk mitinq keçirdilər. 1988-ci il fevralın 18-də M.Qorbaçovun SSRİ-də milli münasibətlər məsələsinə yenidən baxılmasının vacibliyini bildirməsi vəziyyəti daha da gərginləşdirdi. Bu çıxışdan istifadə edən ermənilər fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyasında "DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılaraq, Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə" qərar qəbul etdilər. Qeyd etmək lazımdır ki, ermənilərin iddia etdiyi kimi yox, məhz azərbaycanlılar münaqişənin ilk qurbanları oldular.

1988-ci il fevralın 26-da Sov. İKP MK-nın Baş katibi M.S.Qorbaçovun Azərbaycan və Ermənistan zəhmətkeşlərinə (sonuncu ifadə olduğu kimi verilmişdir – müəllif ) müraciəti münaqişənin tezliklə həll olunacağına olan ümidləri bir qədər də azaltdı. Müraciətdə deyilirdi: "Bu muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə keçməsi məsələsi qaldırılmışdır...Biz

müxtəlif ideyaların və təkliflərin açıq müzakirəsindən boyun qaçırmağın tərəfdarı deyilik". Müraciətdə ermənilərlə yanaşı, azərbaycanlılar da şüurlu və məsuliyyətli olmağa çağırılırdı.

Elə həmin gün Qarabağ hərəkatının ideoloqlarından olan qatı millətçi və Azərbaycan xalqının əleyhinə çıxışları və əməlləri ilə "seçilən" Z.Balayanı və S.Kaputikyanı Moskvada əvvəlcə A.Yakovlev, sonra isə Baş katib M.Qorbaçov qəbul etdi. Qəbulda M.Qorbaçovun müşavirlərindən biri Georgi Şahnazarov da iştirak edirdi. Tomas de Vall "Qara bağ" kitabında yazır: "Moskvadan qayıdan Silva Kaputikyan televiziya ilə, Zori Balayan isə mitinqdə çıxış edərək, kütləvi mitinqləri bir ay müddətində təxirə salmağın vacibliyini bildirdilər. Silva Kaputikyan isə ermənilərə vəd verərək demişdir: "Biz bu məğlubiyyəti qələbəyə çevirməliyik".

F.Bobkov bu görüşlə bağlı "DTK və hakimiyyət" adlı kitabında yazır ki, bu görüşlərin nə üçün lazım olduğunu demək çətindir. Nə üçün Moskvada ancaq erməniləri qəbul etmişdilər? Bu, açıq-aşkar, nümayişkəranə tərəfkeşlik nəyə lazım idi? Azərbaycanlılarda hakimiyyətin bu hərəkətləri nəinki təəccüb doğurdu, hətta onlarda belə hiss yaratdı ki, onları satıblar. Ermənilər isə sevinirdilər, həm də Moskvadan qayıdan S.Kaputikyan və Z.Balayan birmənalı olaraq birdirmişdilər ki, Qarabağ münaqişəsində Qorbaçov ermənilərin tərəfindədir".

F.Bobkovun bu görüşlə bağlı adıçəkilən kitabında Sumqayıt hadisələri haqqında da maraqlı faktlar vardır. Heç şübhəsiz ki, 1988-ci il fevralın 27–29-da Sumqayıtda əvvəlcədən hazırlanmış plan üzrə törədilən iğtişaş həmin dövrdə həyata keçirilən məqsədyönlü təxribatların kuliminasiyası idi. Baş katib M.Qorbaçovun S.Kaputikyanla Z.Balayanı qəbul etməsi və Əsgəranda öldürülənlərin məhz azərbaycanlı olmaları haqda rəsmi məlumat hər iki tərəfə qızışdırıcı təsir göstərdi.

İğtişaşlardan bir neçə gün əvvəl 100-dən çox saqqallı və qara gödəkçəli erməni millətindən olan təxribat qrupu Sumqayıta göndərilmişdi. Onlar şəhərin "Dalğa" və "Sumqayıt" mehmanxanalarında yerləşdirilmişdi. Şərti olaraq "Nalyotçik" adlandırılan qrupun üzvləri fevralın 27-də küçələrə çıxaraq, əhali arasında milli zəmində iğtişaşların həyata keçirilməsi üçün iş aparmağa başladılar. Hallbuki, hadisələr ərəfəsində və hadisələr baş verən gün Sumqayıt şəhərində və ətrafında SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və ordu birləşmələrinin kifayət qədər canlı qüvvəsi və texnikası olsa da, onlar tərəfindən vəziyyətin nəzarət altına alınması üçün vaxtında qabaqlayıcı tədbirlər görülmədi. Niyə? Bu sual indi hamıya gün kimi aydındır. Etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməkdə məqsəd Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq, Ermənistana birləşdirilməsi ideyasını hərbi vasitələrlə reallaşdırmaq, eləcə də Ermənistandan azərbaycanlıları zorakılıqla deportasiya etmək idi.

Bakının 25 kilometrliyində yerləşən, çoxmillətli Sumqayıt şəhərinin əhalisi 1988-ci ildə 258 min 200 nəfər idi. 1949-cu ildə şəhər statusu almış Sumqayıtın iri sənaye, mədəniyyət, elm mərkəzinə çevrilməsində keçmiş SSRİ-nin müxtəlif regionlarından gəlmiş xalqların nümayəndələrinin xidmətləri vardır. Bu, şəhər əhalisinin milli tərkibində də özünü göstərmişdir. Belə ki, 1959-cu ildə burada 10-dan artıq millətin nümayəndəsi yaşayırdısa, 1970-ci ildə onların sayı 15-ə, 1979-cu ildə 77-yə, 1989-cu ildə isə 81-ə çatmışdı. Buna baxmayaraq, şəhər əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. 1979-cu ilin əhalinin siyahıyaalınmasının nəticələrinə görə, azərbaycanlılar ümumi şəhər əhalisinin 68,8 faizini, ruslar 18 faizini, ermənilər 6,7 faizini təşkil edirdilər.

Onu da qeyd etmək lazımdır ki, bu dövrdə Ermənistandan qovulan azərbaycanlıların bir qismi Sumqayıta üz tutmuş, burada məskunlaşmışdı. O zamanadək Ermənistanın 20 rayonundan təkcə Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. Sıralarında 4 rus ailəsinin olduğu qaçqınların çoxu küçələrdə evsiz-eşiksiz qalmışdı.

Yaranmış gərgin şəraitdə, ermənilər tərəfindən qabaqcadan hazırlanmış plan əsasında və onların bilavasitə iştirakı ilə fevralın 28–29-da Sumqayıtda baş verən kütləvi iğtişaşlar nəticəsində 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi. Bədən xəsarəti alan 198 nəfərin 87 nəfəri xəstəxanaya yerləşdirildi. 60 mənzil qarət edildi,14 avtomaşın yandırıldı, 8 avtomaşın zədələndi, 16 ticarət obyektinin şüşələri qırıldı. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 17 avtomaşını əzildi.

O zaman SSRİ Prokurorluğunun ilkin istintaq-əməliyyat qrupunun üzvü olmuş Vladimir Kaliniçenko və digərləri çıxış edərək, Sumqayıt hadisələrinin erməni lobbisinə xidmət edən SSRİ rəhbərliyinin sifarişi ilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil olunduğunu, bu səbəbdən də iğtişaşların təşkilatçılarından heç kimin məsuliyyətə cəlb olunmadığını bildirmişdir.

Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilmisdir.

Belə ki, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən Sumqayıt hadisələri ilə əlaqədar istintaq zamanı müəyyən edilmişdir ki, 1988-ci il fevralın 28–29-da Sumqayıtda baş verən hadisələrin kökündə "Krunk" və "Qarabağ" təşkilatlarının erməni millətçi hərəkatı üçün vəsait topladığı, ümumi büdcəyə pul ödəməyənləri isə cəzalandırmaq qərarına gəldikləri, elə buna görə də Sumqayıtda evlərinə hücum edilənlərin məhz "Krunk" təşkilatına pul ödəməyən ermənilər olduqları barədə fikirlər təsdiqini tapmışdır.

Bununla yanaşı, istintaqla 1988-ci ilin yanvar – fevral aylarında ermənilər tərəfindən Sumqayıt şəhərindəki əmanət kassalarından əmanətlərin kütləvi şəkildə çıxarılması müəyyən olunmuşdur. 1988-ci ilin yanvar–fevral aylarında, yəni, Sumqayıtda kütləvi iğtişaş baş verməzdən əvvəl şəhərdə fəaliyyət göstərən 14 əmanət kassasından milliyyətcə erməni olan 84 əmanətçi tərəfindən 143 min 64 rubl məbləğində əmanətlər götürülmüş və həmin aylarda şəhərdə fəaliyyət göstərən poçt bölmələrindən Ermənistanla çoxsaylı telefon danışıqları aparılmış, pul köçürmələri edilmişdir. Faktlar sübut edir ki, törədilmiş talanlar təsadüfi olmamışdır.

Qeyd etmək lazımdır ki, talanlar başlamazdan əvvəl şəhərdə yaşayan imkanlı ermənilərin əksəriyyəti Sumqayıtı tərk etmiş, şəhərdə qalan imkansız ermənilərin bəziləri zərər çəkmişlər. Erməni millətçilərinin tarixində onların bu üsuldan istifadə etdikləri haqqında kifayət qədər tutarlı faktlar mövcuddur. Yəni Sumqayıtda da baş verəcək hadisələr əvvəlcədən planlı şəkildə hazırlanmış və yerli ermənilərin əksəriyyəti xəbərdar edilmişdi.

Bununla yanaşı, baş vermiş talan və qətllərdə erməni millətindən olanlar xüsusi tapşırıqla "fəallıq" göstərmiş, öz millətindən olanlara amansızlıq etmişlər. Sonradan istintaqla müəyyən edilmişdir ki, iğtişaşların təşkilatçılarından biri milliyyətcə erməni Eduard Qriqoryan olmuşdur. Belə ki, istintaq materiallarının araşdırılması zamanı bir sıra mühüm məqamlar ortaya çıxdı. Sənədlər təsdiq edir ki, Eduard Qriqoryan və onun rəhbərlik etdiyi qrup iğtişaşlar zamanı daha çox qəddarlıq edərək 6 ermənini qətlə yetirmişdir.

Erməni millətindən olan Sumqayıt şəhər sakinlərinin öldürülməsinə görə məhkum olunmuş Eduard Qriqoryan 1989-cu il dekabrın 22-də hökm oxunduqdan sonra – SSRİ mövcud olduğu zaman – 1991-ci il avqustun 26-da Yerevan şəhər 1 saylı istintaq təcridxanasına köçürülmüş, sonradan azadlığa buraxılmış və hazırda Ermənistanın xüsusi xidmət orqanlarının himayəsi altında üçüncü ölkənin ərazisində yaşamaqda davam edir.

Qeyd etmək vacibdir ki, istintaq qrupu tərəfindən toplanmış materialların qiymətləndirilməsi və təhlili təsdiq edir ki, Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş xüsusi plan olmuşdur. SSRİ dövründə foto-video çəkilişinə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, Sumqayıt hadisələrinin əvvəlindən axırınacan foto-video çəkilişi aparılmış və mərkəzi televiziya vasitəsilə erməni mənşəli Henrix Borovikin aparıcısı olduğu "Vzqlyad" proqramında iki dəfə göstərilmiş, sonra isə SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi dünyada yayılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt hadisələrini təhlil edərək demişdir: "Heç kim üçün sirr deyil ki, Sumqayıt hadisələrini erməni millətçiləri törətmişdilər. Bu, onların təxribatı idi və orada ən çox qəddarlıq göstərən erməni millətindən olanlar idi. Məqsəd də aydındır ki, bu hadisədən istifadə edib Azərbaycana qarşı əsassız iddialar irəli sürülsün və ondan sonra azərbaycanlılara qarşı soyqırımı əsaslandırılsın".

**Elçin Əhmədov,**
**Azərbaycan RespublikasınınPrezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru**
**"Xalq qəzeti". - 2020. - 29 fevral. - S. 8.**

## Sumqayıt hadisələri: Ermənilərin törətdikləri təxribatdan 32 il ötür

***Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş təxribat olub***

Sumqayıt hadisələrindən 32 il ötür.

1988-ci il fevralın 28-də baş vermiş bu hadisələr SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə Azərbaycana qarşı təşkil etdiyi və həyata keçirdiyi təxribatların növbəti tərkib hissəsi idi. Məqsəd isə hər zaman olduğu kimi, dünya ictimaiyyətində yanlış rəy formalaşdırmaq, anti-Azərbaycan əhval-ruhiyyəsi yaratmaq idi. Bütün şahid ifadələri Sumqayıt hadisələrinin təşkilatçısının erməni, iki dəfə məhkum edilən Eduard Qriqoryan olduğunu sübut edir. Qriqoryan Sumqayıt hadisələri zamanı beş ermənini şəxsən öldürüb.Bir sözlə, Sumqayıtda etnik zəmində törədilən iğtişaş həmin dövrdə bu sıradan olan məqsədyönlü təxribatların kulminasiyası idi.

Sumqayıt şəhərinin əhalisi 1988-ci ildə 258 min nəfər idi və bunun təqribən 18 minini etnik ermənilər təşkil edirdi. 1988-ci ilin fevralına qədər Sumqayıtda etnik zəmində hər hansı qarşıdurma olmayıb və bu gün də Sumqayıt digər Azərbaycan şəhərləri kimi çoxmillətli və çoxkonfessiyalı xüsusiyyətini saxlamaqdadır.

1988-ci il fevralın 26-da Sumqayıtın mərkəzi meydanı Azərbaycanın Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən iki gəncin öldürülməsinə etiraz olaraq nümayişçilər tərəfindən tutuldu. Erməni ekstremistləri və təxribatçı agentlər tərəfindən bu etiraz aksiyası iğtişaşa doğru təhrik edildi. İğtişaşı araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən cinayət işi başlandı, xüsusilə mühüm işlər üzrə müstəntiq Vladimir Qalkinin rəhbərliyi ilə ölkənin müxtəlif regionlarından cəlb edilmiş 231 nəfər istintaqçı və bir o qədər də əməliyyatçıdan ibarət xüsusi istintaq-əməliyyat qrupu yaradıldı. SSRİ Baş Prokurorluğunun apardığı istintaq nəticəsində iğtişaş zamanı 26 erməni, 6 azərbaycanlı olmaqla, 32 nəfərin öldürüldüyü müəyyən edildi. Məhkəmənin qərarı ilə 92 nəfər uzunmüddətli həbs cəzasına, bir nəfər isə ölüm hökmünə məhkum olundu. Lakin SSRİ Baş Prokurorluğu tərəfindən aparılmış istintaqla iğtişaş iştirakçılarının yalnız bir qismi müəyyən edilib məhkəmənin qərarı ilə cəzalandırıldı, SSRİnin siyasi rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təzyiqləri nəticəsində istintaq məntiqi sonluğa çatdırılmadı, onun təşkilatçıları və sifarişçiləri müəyyən edilmədi.

Bu cinayətin əsl mahiyyətini açmaq, SSRİ Baş Prokurorluğunun üstündən sükutla keçdiyi məqamları araşdırmaq üçün Azərbaycanın qəti siyasi iradəsinin təzahürü olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və Baş prokurorun qərarı ilə həmin kütləvi iğtişaşlarla əlaqədar keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparılaraq sonradan dayandırılmış beş cinayət işinin icraatı təzələnərək vahid icraatda birləşdirildi və istintaqın aparılması Baş prokurorun birinci müavininin rəhbərliyi ilə prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət yaradılmış istintaq-əməliyyat qrupuna həvalə edildi.

İstintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş zəruri istintaq-əməliyyat tədbirləri nəticəsində hadisələrin həqiqi mahiyyəti üzə çıxıb, iğtişaşların sovet rəhbərliyində təmsil olunmuş erməni-pərəst qüvvələrin göstərişi ilə əvvəlcədən hazırlanmış ssenari üzrə erməni separatçı qüvvələri tərəfindən törədildiyi müəyyən edilib.Buna sübut olaraq demək olar ki, 2016-cı il martın 31-də Moskva şəhərində jurnalist Səadət Qədirovanın "Sumqayıt hadisələri barədə ilk mənbələrdən" adlı kitabının təqdimat mərasimində SSRİ prokurorluğunun ilkin istintaq-əməliyyat qrupunun üzvü olmuş Vladimir Kaliniçenko və digərləri çıxış edərək Sumqayıt hadisələrinin erməni lobbisinə xidmət edən SSRİ rəhbərliyinin sifarişi ilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil olunduğunu, bu səbəbdən də iğtişaşların təşkilatçılarından heç kimin məsuliyyətə cəlb olunmadığını bildiriblər.

Hazırkı istintaq qrupu tərəfindən toplanmış materialların qiymətləndirilməsi və təhlili təsdiq edir ki, Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş təxribat olub. SSRİ Konstitusiyası əsasında Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının qeyri-qanuniliyini dərk edən erməni ideoloqları və SSRİ rəhbərliyində onları açıq dəstəkləyən şəxslər ermənilərin və azərbaycanlıların birgə yaşamasının qeyri-mümkünlüyünü əsaslandırmaq, azərbaycanlıların artıq tam şəkildə Ermənistan ərazisindən qovulmasını təmin etmək və Azərbaycanı nüfuzdan salmaq üçün bu təxribata əl atıblar.

1988-ci ilin yanvar-fevral aylarında, yəni, Sumqayıtda kütləvi iğtişaş baş verməzdən əvvəl şəhərdə fəaliyyət göstərən 14 əmanət kassasından milliyyətcə erməni olan 84 əmanətçi tərəfindən

143 min 64 rubl məbləğində əmanətlər götürülüb.İstintaqın gedişində, həmçinin məlum olub ki, həmin aylarda şəhərdə fəaliyyət göstərən poçt bölmələrindən Ermənistanla çoxsaylı telefon danışıqları aparılıb, pul köçürmələri edilib. İstintaq zamanı müəyyən edilib ki, 1988-ci il fevralın 27-29-da Sumqayıt şəhərində baş vermiş məlum hadisələrin fəal iştirakçılarından biri məhz Eduard Qriqoryan olub. Qriqoryan öz ətrafında adamları cəmləşdirib onlara rəhbərlik edərək, "ermənilərə ölüm", "ardımca" və sair çağırışlarla özündə olan və əvvəlcədən hazırlanmış siyahıya əsasən erməni millətindən olan şəhər sakinlərinin evlərinə hücumlar həyata keçirib. İstintaq zamanı hücuma, zorakılığa və işgəncələrə məruz qalmış erməni millətindən olan zərərçəkmişlər (Lyudmila və Karina Mejlumyan bacıları, Manvel Petrosyan və digərləri) göstəriblər ki, onların evlərinə hücum edənlərə rəhbərlik və göstəriş verən məhz Eduard Qriqoryan olub, orada olan insanlar onun göstəriş və əmrlərinə əsasən hərəkət ediblər. İstintaq zamanı maraqlı bir fakt da üzə çıxıb.

Belə ki, erməni millətindən olan Sumqayıt şəhər sakinlərinin öldürülməsinə görə məhkum olunmuş Eduard Qriqoryan 1989-cu il dekabrın 22-də hökm oxunduqdan sonra – SSRİ mövcud olduğu zaman – 1991-ci il avqustun 26-da Ermənistan Respublikası, Yerevan şəhər 1 saylı istintaq təcridxanasına köçürülüb. Ortaya sual çıxır ki, hansı "xidmətlərinə" görə Eduard Qriqoryan Ermənistana təhvil verilib? 2015-ci il fevralın 9-da Eduard Qriqoryanın 2000-ci il sentyabrın 1-nə kimi qüvvədə olan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar çıxarılıb, məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilməklə barəsində axtarış verilib.

İstintaqla Sumqayıt şəhərində yaşayan ermənilərin böyük bir hissəsinin "Krunk" cəmiyyətinə pul vəsaiti köçürdüyü müəyyən edilib. Sumqayıt şəhərində zərərçəkən ermənilərin əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətində fəaliyyət göstərən "Krunk" cəmiyyətinə könüllü maddi vəsait köçürmək dən imtina edənlər olub. Belə ki, cinayətkar dəstə bir binaya, bloka daxil olaraq birinci mərtəbələrdə yerləşən erməni millətindən olan sakinlərin evlərinə daxil olmayaraq, yuxarı mərtəbələrdə yaşayan ermənilərin mənzillərinə hücum ediblər. Sonradan məlum olub ki, hücuma məruz qalmayan evlərin sahibləri "Krunk" cəmiyyətinə vaxtlı-vaxtında pul vəsaitləri köçürənlərdir. Şahidlərin ifadələri ilə müəyyən edilib ki, "Krunk" cəmiyyətinə pul köçürən ermənilərin evləri hücuma məruz qalmayıb. Hətta müəyyən edilib ki, erməni millətindən olan musiqiçilər toydan və digər tədbirlərdən əldə etdikləri pul vəsaitinin bir hissəsini "Krunk" cəmiyyətinə köçürüblər.

Cinayət işinin materialları bir daha göstərir ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat planına uyğun olaraq daha geniş miqyas alardı. Milliyyətcə erməni olan şahidlərin ifadələrindən göründüyü kimi, onlarla erməni hadisələr vaxtı azərbaycanlı ailələr tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilib.

SSRİ dövründə foto-video çəkilişə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, hadisələrin əvvəlcədən quraşdırılmış vasitələrlə foto-video çəkilişi aparılıb və dərhal SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi yayılıb.

Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilib.

Hazırda qeyd olunan iğtişaşların bütün sifarişçisi və iştirakçılarının aşkarlanaraq cinayət məsu liyyətinə cəlb olunması, eləcə də onların və havadarlarının ifşa olunması istiqamətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Cavid,**
**"Xalq Cəbhəsi". - 2020. - 29 fevral. - S. 9.**

## Sumqayıt hadisələri: törətdikləri vəhşiliklər cinayətkarları addım-addım izləyir

*1988-ci il fevralın 27-dən 29-dək Sumqayıtda törədilmiş iğtişaşlar zaman-zaman ermənilər tərəfindən onlara edilən qəsd kimi xatırlanır. Əslində isə Sumqayıt hadisələri onların öz əlləri ilə təşkil olunmuş və Azərbaycanı millətçilikdə günahlandırıb Dağlıq Qarabağı Ermənistana birləşdirmək planına xidmət etmişdir. Sumqayıt hadisələri zamanı 26 erməni ilə bərabər, 6 azərbaycanlı da qətlə yetirilmiş, yüzlərlə sumqayıtlı tutularaq işgəncələrə məruz qalmış və cəza almışdır. Onlardan biri jurnalist Elman Eldaroğludur. Həmkarımızın xatırladıqları:*

– Həmin mənhus günlərin üstündən 32 il keçir. Onda mənim 22 yaşım var idi. Sumqayıt Superfosfat zavodunda ekspeditor işləyirdim. İnsan yaşlandıqca gördüklərinin mahiyyətini daha çox anlayır... Təqvimdə 27 fevral 1988-ci il idi. Sumqayıt od tutub yanırdı. Alışdırılmış avtomobillərin qara tüstüsü şəhərin üzərində müharibə ab-havası yaratmışdı. Bir qrup erməni evlərə soxulur, öz soydaşlarını eyvandan, pəncərədən çölə atır, qadın və qızları zorlayırdı. Hamı əsəbi, hər kəs təlaş içində idi. Hadisələri doğru-düzgün qiymətləndirmək çətin idi. İnsanları yayılan şayiələr idarə edirdi.

Ertəsi gün – fevralın 28-də mən də olaylardan sarsılmış halda idim. Səhər birtəhər özümü zavoda çatdırıb yenicə işə başlamışdım. Hay düşdü ki, ermənilər uşaq bağçalarına girib qadınları zorlayır, uşaqları öldürürlər. Ətrafımda olan gənclər kimi mən də avtobus dayanacağına doğru qaçdım. Avtobuslara doluşub şəhərə qayıtdıq. Biz şəhərə çatanda sovet əsgərləri qarşımızı kəsib, geriyə qayıtmağımızı tələb etsələr də, özümüzü qaynar nöqtəyə - köhnə avtovağzalın yanına çatdıra bildik. Məlum oldu ki, yalan məlumat yayılıb, dünənki hadisələrdən sonra şəhərin bütün ermənilərini klublara yığıb mühafizə edirlər. Heç kəsin tanımadığı kimlərsə səsgücləndirici vasitəsi ilə elə hey qışqırır, camaatı qisasa səsləyirdi: "Əsgərlər bizim düşmənlərimizdir! Erməniləri müdafiə edirlər! Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayıb!"...

Əsəblərini cilovlaya bilməyən gənclər əsgərlərdən şəhərdən çıxıb getməyi tələb edirdilər. Bir də gördüm ki, 7-8 rus əsgəri məni mühasirəyə alıb. Onlardan biri avtomatın qundağı ilə burnuma vurdu, digəri isə əlindəki əsgər beli ilə başıma zərbə endirdi. Əsgərlər qollarıma girib məni "katalaşka" adlandırılan "KPZ" maşınına qaldırdılar. Maşın mənim kimi "zərərsizləşdirilən" adamlarla dolu idi. Sınmış burnumdan, başımdan axan qan dayanmaq bilmirdi. Kimisi dəsmal verir, kimisi boynundakı şərfi çıxarıb mənə uzadırdı. Bizi Sumqayıt milis şöbəsinə apardılar. Müstəntiqlər dindirəndən sonra şöbənin müvəqqəti təcridxanalarına yerləşdirdilər.Bir gün orada qaldıq, sonra Bayıl türməsinə aparıldıq.

On dörd günlük cəzadan sonra əməlimdə heç bir cinayət tərkibi tapılmadığı üçün çoxları kimi məni də yenidən Sumqayıt milis şöbəsinə gətirib oradan azadlığa buraxdılar… Onda hələ biz hadisələri düzgün təhlil edə bilmirdik. Sonradan anladıq ki, Sumqayıt iğtişaşları o vaxtkı KQB-də ssenarisi yazılan, mənfur ermənilərin nümayiş etdirdiyi faciəvi tamaşa idi.

Dövlət Təhlükəsizliyi Komitəsi Sumqayıt şəhər şöbəsi sədrinin sabiq müavini A.Məmmədov: "Sumqayıt hadisələrinin ssenarisi əvvəlcədən tutulmuşdu. SSRİ Dövlət Təhlükəsizlik Komitəsindən polkovnik Paponinin rəhbərliyi altında 30 nəfərdən ibarət bir heyət Sumqayıta gəldi. Onların Azərbaycan xalqının xeyrinə heç bir tədbir görmədiklərinin şahidi olduq. Əksinə, ermənilərlə söhbətlərində onları azərbaycanlılara qarşı qızışdırırdılar. Qoşunların gözləmə mövqeyi də hamının təəccübünə səbəb olmuşdu. Məsələ isə aydın idi. Sumqayıtda təxribat törədilməli idi və törədildi".

Sumqayıt qırğınlarının əsas icraçılarından biri, daha doğrusu, birincisi Eduard Qriqoryan olub. Bu, istintaq zamanı şahid ifadələri əsasında tam sübut olunub. Həmin hadisələr zamanı öldürülən 26 ermənidən 6 nəfəri onun payına düşür. Qriqoryan Sumqayıtda doğulmuşdu, atasının ölümündən sonra onu rus anası böyütmüşdü. Halbuki erməni mənbələri belə bir məlumat yaymağa çalışırdılar ki, guya onun anası azərbaycanlı idi. Bu, daha bir erməni məkri, erməni yalanı idi. "Paşa" ləqəbi ilə tanınan E.Qriqoryan üç dəfə həbsxanada yatmışdı.

Zərərçəkmiş Sumqayıt sakini L.Mejlumyanın məhkəmədə dedikləri: "Qriqoryan mənim mənzilimə daxil oldu, sındırdığı stulun ayaqları ilə xəstə anama zərbələr endirdi, bu vaxt mən müqavimət göstərməyə çalışdım, ancaq gücüm çatmadı, o, məni yerə yıxaraq, istədiyini etməyə başladı".

Hadisələrdə iştirak etmiş Nəcəfov soyadlı bir gənc isə istintaqda demişdi: "Qriqoryan tərəfindən təşkil olunmuş dəstə Emma adlı erməni qadının 512 saylı evinə soxuldu, dərhal onu lüt soyundurdular və Edik Qriqoryan onu bu vəziyyətdə küçəyə çıxartmağı təklif etdi, sonra onun iştirakı ilə Emma

vəhşicəsinə öldürüldü".

İstintaq materiallarının başqa bir hissəsində göstərilib ki, E.Qriqoryan öz dəstəsi ilə 1-ci mikrorayonda M.Petrosyanın mənzilinə daxil olmuş, müqavimət göstərmək istəyən mənzil sahibinə başından zərbə endirərək halsız vəziyyətə salmışdır.

Belə faktlar çoxdur. Erməni təşkilatları bu cür cinayətlər törətmiş E.Qriqoryanı ağır cəzadan da qurtara bildilər. Moskva məhkəməsi hadisə iştirakçısı Əhməd Əhmədov haqqında ölüm hökmü çıxardı və hökm dərhal yerinə yetirildi. Amma qətllərin əsas təşkilatçısı və icraçısı E.Qriqoryana isə vur-tut 12 il iş verildi və bir neçə ildən sonra o, Ermənistana "etap" olunaraq azadlığa buraxıldı.

Şahid Allahverdi Qasımovun sözlərinə görə, Edik deyilən bu şəxs avtovağzalda bir neçə gənci toplayaraq onlara Qafandan indi gəldiyini və orada azərbaycanlı qadınların elektrik dirəklərinə mıxla vurulduğunu deyərək onları qızışdırıb. Dövlət ittihamçısı Qriqoryan üçün ömürlük iş istəsə də, bu, qəbul olunmayıb. Sumqayıtda keçirilmiş məhkəmə proseslərində azərbaycanlılara qarşı açıq qərəz nümayiş etdirilib.

Kütləvi iğtişaşlarda iştirak, zorlama, qətl, qarət, milli ədavətin qızışdırılması ittihamları ilə mühakimə olunan E.Qriyqoryana cəmi 12 il cəza verildi, SSRİ Prokurorluğu əsl həqiqəti ört-basdır etdi.

Sumqayıt hadisələri ilə əlaqədar keçmiş SSRİ Prokurorluğunun ittifaqın müxtəlif respublikalarından və hüquq-mühafizə orqanlarından ezam olunan 200-ə yaxın müstəntiq və bir o qədər də əməliyyatçıdan ibarət istintaq-əməliyyat qrupu tərəfindən olduqca böyük həcmdə material toplanmış, araşdırılmış və bir çox şəxslər məsuliyyətə cəlb edilmişdilər. Lakin hadisələrlə bağlı istintaqın lap əvvəlindən zərərçəkənlərin yalnız ermənilər, təqsirkarların isə azərbaycanlılar olması barədə irəli sürülmüş fərziyyə istintaqın birtərəfli və kifayət qədər qərəzli aparılmasına, onun müəyyən siyasi sifarişə xidmət etməsinə səbəb olub.

Belə ki, Sumqayıtda baş vermiş iğtişaşlar zamanı saxlanılmış erməni soyadı daşıyanların barəsində heç bir araşdırma aparılmamış, onlar dərhal "zərərçəkən" tərəf kimi buraxılaraq məsuliyyətdən kənarda qalmışdır. Hadisələrdə "kapitan" rolu oynamış Eduard Qriqoryanın məsuliyyətdən azad edilməsi üçün erməni millətçi təşkilatları və xüsusi xidmət orqanları çox çalışıblar. Təsadüfi deyil ki, o, azadlıqdan məhrumetmə cəzasına məhkum edildikdən az sonra, cəzasını qanunla Azərbaycan SSR ərazisində çəkməli olduğu halda, hansısa xidmətlərinə görə buradan çıxarılmış və çox keçmədən azadlığa buraxılmışdı.

Sumqayıt sakinlərinin, habelə hadisələrin bilavasitə şahidlərinin çoxsaylı ifadələrindən görünür ki, iğtişaşları təşkil edən meşin gödəkçəli şəxslər sumqayıtlı olmayıblar. Onlar öz aralarında bir çox hallarda erməni dilində danışıblar, Azərbaycan dilini təmiz biliblər və hadisələr zamanı adamlar arasında ermənilər əleyhinə güclü təbliğat aparıblar, cavanlara spirtli içkilər, güclü təsiredici həblər, pul, dəmir parçaları və s. paylayıblar və talançıları əvvəlcədən onlara məlum olan erməni ünvanlarına aparıblar.

Yetərincə sübut olunmuş faktdır ki, hadisələr Dağlıq Qarabağdan xüsusi tapşırıqlarla Sumqayıta gəlmiş emissarlar və DTK-nın agentləri tərəfindən təşkil olunmaqla icra edilmişdi. Emissarlar Eduard Qriqoryanı ətraflı təlimatlandırandan sonra ona Sumqayıtda yaşayan və separatçıların yaratdıqları "Qarabağ" və "Krunk" təşkilatlarına pul köçürməyən ermənilərin siyahısını və dəqiq ev ünvanlarını veriblər. İştirakçılara paylanmış psixotrop dərmanlar və spirtli içkilərsə aqressivliyi artırmaq məqsədinə xidmət edib. Hadisələr zamanı Eduard Qriqoryan özünün üç qardaşı ilə bərabər dəliqanlı gənclərə soyuq silah kimi istifadə olunan armatur parçaları paylayıblar.

Qriqoryan öz ətrafına topladığı "dost"ları ilə asanlıqla ümumi dil taparaq, quldurluq və soyğunçuluq etmək üçün yaxşı şansın yarandığını deyib və onları mitinqlərin keçirildiyi meydana aparıb, orada özünü Qafandan gəlmiş azərbaycanlı kimi təqdim edərək, ermənilərin orada dinc azərbaycanlı əhalini qırdıqlarını, özlərinin isə bir maşın meyit gətirdiklərini mitinq iştirakçılarına danışaraq, hamını intiqam almağa çağırıb. Hədəf isə "Qarabağ" (komitəsi) və "Krunk" (cəmiyyəti) təşkilatlarına pul verməkdən imtina etmiş ermənilərin yaşadıqları mənzillər olub.

Bəzi mənbələrə görə, "Sumqayıt cəlladı" kimi tanınan erməni Eduard Qriqoryan hazırda Rusiyanın paytaxtı Moskvanın yaxınlığındakı Sergiyev Posad şəhərində, beşmərtəbəli yaşayış binasındakı mənzillərdən birində məskunlaşıb. Asudə həyat yaşayan cəllada sığınacaq verənlər onlarla günahsız insanın qətlində bilavasitə təqsirkar olan birisini əfv edilmiş kimi qorumaqdadırlar. Amma o, hər gününü cəza qorxusu, xofu ilə yaşayır. Çünki yaxşı bilir ki, cinayətlər cəzasız qalmır. Geci-tezi var

Keçmiş Dövlət Təhlükəsizlik Komitəsinin arxivlərində “Nalyotçik” adı altında saxlanılan məxfi işdən müəyyən edilib ki, Sumqayıt hadisələri ərəfəsində yerli Dövlət Təhlükəsizlik Komitəsi (DTK) şöbəsinin nəzarətində 47 nəfər ekstremist-millətçi erməni əsilli şəxs olub və onlardan heç biri hadisələr zamanı zərərçəkən siyahısında olmayıb. Bu faktlar bir daha təsdiq edir ki, “Krunk” cəmiyyəti ilə əlaqə saxlayan erməni millətçiləri sağ-salamat qalıblar.

Başqa bir məlumata görə, Sumqayıtda “Krunk” təşkilatının emissarlardan biri də o vaxt Qarabağdan Sumqayıta hərbi komissar kimi dəyişdirilib göndərilmiş Kalantarov soyadlı erməni polkovnik olub. O, buradakı ermənilərin hamısının siyahısını və ünvanlarını bilib. Qondarma iğtişaşlara öz “layiqli töhfə”sini verib və hadisələr ərəfəsində iş yerini dəyişmək adı ilə aradan çıxıb. Musiqiçilər və qumar oynayanlar da əldə etdikləri gəlirlərdən “Krunk” cəmiyyətinə pul ötürürmüşlər. Bəzi mənzilləri isə ermənilər boşaldıb sonradan özləri yanğın törədərək kompensasiya istəyiblər.

Həmkarımız Eyruz Məmmədovun axtarıb tapdığı, təqaüddə olan polkovnik Vladimir Lebedev 1988-1993-cü illərdə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt şöbəsinin sədri vəzifəsində çalışıb, hazırda Ukraynada yaşayır. Müsahibəsində Sumqayıt iğtişaşları ilə bağlı bəzi məqamlara aydınlıq gətirib:

– Burada Ermənistanın xüsusi xidmət orqanları və daşnak partiyasının millətçi üzvləri məharətlə işlədilər. Mikrorayonda kameralar quraşdırıldı, foto çəkilişlər aparıldı. Sonra sənədli film çəkib dünya ictimaiyyətinə çatdırdılar. Həmin film hadisələrdən sonra Fransada nümayiş etdirildi. Onu da deyim ki, kameralar məsələsi elə də inandırıcı deyil, təsvirlər təhrif olunmuş, təxribat xarakterli film idi. Biz bunun üzərində işləmişdik. Həmin dövrdə gizli və gözə çox da çarpmayan kameralar yalnız “KQB”-də vardı. Moskvadan və Bakıdan olan DTK əməkdaşları Sumqayıtda çəkilişlərlə məşğul idilər. Bu, danılmaz faktdır.

Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi Cahangir Müslümzadə mitinq iştirakçılarını arxasınca dəniz kənarına aparanda bizə Azərbaycan DTK-sından xəbər verildi ki, Moskvadan iki xüsusi qrup gəlib, onlar hadisələri lentə alacaqlar. Sonralar o lentlər yoxa çıxdı. Şübhəsiz, bütün bunlar gizli şəkildə harasa göndərilib. Sumqayıtda iğtişaşların tüğyan etməsində spirtli içkilərin, narkotiklərin də rolu böyük olmuşdur. Sumqayıtın ərzaq mağazalarına cədvələ uyğun olaraq həftədə bir dəfə araq gətirilirdi. Hadisələr ərəfəsində mağazaların birindən ticarət birliyinə zəng vurulmuşdu ki, təcili olaraq araq gətirilsin. Əvvəl buna etiraz etmişdilər. Yenidən israrla spirtli içki tələb olunmuşdu. Guya, mağazada araq qurtarıb. Biz bununla maraqlandıq və məlum oldu ki, zəng vuran da, mağaza müdiri də erməni imişlər. Onlar baza müdirinə külli miqdarda rüşvət verib, istəklərinə nail olmuşdular. Həmin günlər ermənilər Sumqayıtın bütün aptek müdirlərinə hədə-qorxu gələrək demidrol dərmanlarını əldə etmişdilər. Spirtli içki demidrolla birlikdə gənclərə paylanıldı. Səhiyyə işçiləri daha dəqiq deyə bilərlər, demidrolu spirtli içki ilə qarışdıranda təsiri adi narkotikdən də güclü olur, kişilərdə cinsi hormonları artırır.

Həmin dövrdə istər Yerevanda, istər Moskvada, istərsə də xarici mətbuatda Qriqoryanın xilası ilə bağlı böyük bir təbliğat kampaniyası başlanmışdı. Guya, Azərbaycanda ona işgəncələr verilir və sair. Bunları bəhanə edən Kremlin rəhbərliyi hüquq-mühafizə orqanlarına tapşırdı ki, onu Rusiyaya köçürsünlər. “Sumqayıtın əks-sədası” sənədli filminin bəzi epizodlarının çəkilişində mən də iştirak etmişəm. Qriqoryanın hələ o vaxt Budyonovskda həbsdə olduğu zaman ona rejissorun assistenti kimi təqdim edilmişəm. Qriqoryana ayda bir dəfə Amerikadan ərzaq və geyim əşyalarından ibarət böyük bağlama gəlirdi. Almaniyadan dərman preparatları göndərilirdi. Çünki o, vərəm idi. Bir sözlə, Qriqoryan həbsxanada yox, sanki, sanatoriyada dincəlirdi. Bizi onun etirafı maraqlandırırdı. Lakin onu Budyonovska gətirəndə kiminləsə görüşməyi, müsahibə verməyi, həqiqəti söyləməyi qəti qadağan etmişdilər, əvəzində ona gözəl bir şərait yaratmışdılar.

Dahilərdən biri deyib ki, cinayətkarların cəzası onları addım-addım izləyir. Bu cəza mütləq cinayətkarları tapmalıdır. Cinayət cəzasız qalmamalıdır.

**Əli Nəcəfxanlı,**
**“Xalq qəzeti”. - 2020-ci il. - 4 mart. - S.13.**

## Azərbaycan BMT-yə Sumqayıt hadisələri ilə bağlı sənəd təqdim edib

***"Tarixi hadisələrin gedişi bizə Ermənistanın heç də münaqişələrin sülh yolu ilə həll olunmasının tərəfdarı olmadığını göstərir"***

"Ermənilərin xəstə təxəyyülünə görə guya "qonşu dövlətlərin əraziləri, maddi-mədəniyyət abidələri və mədəni irsləri tarixən onlara məxsus olmuşdur". Ona görə də bu gün ermənilər işğal etdikləri ərazilərin adlarını dəyişərək, Samtsxe-Cavaxetiyanı "Cavaxk", Dağlıq Qarabağı isə "Arsax" kimi qələmə verirlər ki, bunların da heç bir tarixi əsası yoxdur. Ermənistan beynəlxalq ictimai rəyi çaşdırmağa və yalan üzərində tarix qurmağa çalışır"

Azərbaycan hökuməti 1988-ci il fevral ayında Sumqayıt şəhərində baş verən hadisələrlə bağlı BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasına sənəd təqdim edib. Trend-in məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin "Twitter" səhifəsində məlumat verilib. Sənəddə vurğulanıb ki, rəsmi araşdırma 1988-ci ilin fevral ayında cərəyan edən hadisələrin erməni ekstrimist təşkilatları tərəfindən Azərbaycanı nüfuzdan salmaq və Ermənistanın qeyri-qanuni işğalçı niyyətlərini ört-basdır etmək məqsədi ilə hazırlanıb həyata keçirildiyini təsdiqləyib. Sənəd Azərbaycanın BMT-dəki daimi nümayəndəsi səfir Yaşar Əliyev tərəfindən BMT-nin Baş Assambleyasına təqdim edilib. Qeyd edək ki, 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər ölüb. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı olub. Bu hadisələr də SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərin özləri ilə birgə təşkil etdiyi və həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Sumqayıtda bu hadisəni təşkil etmək üçün seçilmiş şəxs də erməni – iki dəfə məhkum olunmuş Eduard Qriqoryan idi. Baxmayaraq ki, Sumqayıt hadisələrinin təşkilatçısı kimi azərbaycanlı Əhməd Əhmədov güllələnib, amma şahid ifadələri əsl günahkarın əslində erməni əsilli Eduard Qriqoryan olduğunu sübut edir.

Ermənilərin Gürcüstanda yalan üzərində qurduqları tarix. Qeyd edək ki, AMEA-nın Qafqazşünaslıq İnstitutunun Gürcüstanşünaslıq şöbəsinin mütəxəssisi Kamal Salayev erməni işğalı və yalanları ilə bağlı "Palitra"ya bildirib ki, 2020-ci il martın 3-də Ermənistanın Baş naziri Nikol Paşinyanın başçılıq etdiyi nümayəndə heyəti Tbilisiyə rəsmi səfər edib: "Səfər çərçivəsində Paşinyan, Gürcüstanın Prezidenti Salome Zurabişvili ilə, Baş nazir Giorgi Qaxariya ilə, Xarici İşlər naziri David Zalkalian i ilə, Müdafiə naziri İrakli Qaribaşvili ilə və parlamentin sədri Arçil Talakvadze ilə rəsmi görüş keçirmişdir. Ermənistanın Baş naziri Nikol Paşinyan Gürcüstanın hökumət administrasiyasında keçirilən görüş zamanı belə bir fikir ifadə etmişdir:"Biz, bütün münaqişələrin sülh yolu ilə həll olunmasına dair Gürcüstanın mövqeyinin tərəfdarıyıq". Bununla yanaşı, martın 4-də Gürcüstanın erməni diasporu ilə görüşündə Paşinyan, əvvəllər İrəvan və Tbilisi arasında etibarın olmadığını, baş verən hadisələrdə tərəflərin bir-birlərini təqsirkar hesab etdiklərini, Ermənistanda baş verən "məxməri inqilab" zamanı hakimiyyət devrildikdən sonra isə bu prosesin guya dayandığını qeyd etmişdir. Tarixi hadisələrin gediş i bizə Ermənistanın heç də münaqişələrin sülh yolu ilə həll olunmasının tərəfdarı olmadığını göstərir". Onun sözlərinə görə, hələ 1991-ci ildə dövlət müstəqilliyi elan olunduqdan sonra Gürcüstan separa tizm təhlükəsi ilə, təhdidlərlə üz-üzə qalmış və qlobal səviyyədə baş verən geosiyasi oyunun qurbanına çevrilmişdi: "Regionda törədilən qətliamların əsas səbəbkarı isə öz ağalarına nökərlik edərək tarix boyu alət rolunu oynayan ermənilər olublar. Gürcüstanla Ermənistanın arasındakı ikitərəfli diplomatik münasibətlərin 1992-ci ilin iyulun 17-də qurulmasına baxmayaraq 1993-cü il fevralın 9-da marşal İvan Baqramyanın adına erməni batalyonunun yaradılması, Ermənistanın əslində necə bir təcavüzkar dövlət olmasından xəbər verir. Qeyd etmək lazımdır ki, Paşinyanın Tbilisiyə ilk rəsmi səfəri 2018-ci ilin mayın 30-da baş tutub. Həmin vaxt Ermənistan hökumətinin nümayəndə heyətini Gürcüstanın sabiq Xarici İşlər naziri Mixail Canelidze qarşılayıb. Daha sonra Paşinyanın, Gürcüstanın sabiq Baş Naziri Giorgi Kvirikaşvili ilə və sabiq parlament sədri İrakli Kobaxidze ilə rəsmi görüşü baş tutub. "Armenpress"-in verdiyi məlumata əsasən Paşinyan səfər zamanı Zalqa, Poka, Qandza, Satxa və Ninotsmindada yaşayan ermənilərlə görüş keçirib. Paşinyan Ayazma kəndindəki çıxışı zamanı belə bir fikir ifadə edib: "Biz Ermənistan və Gürcüstan arasındakı münasibətlərin səviyyəsini və keyfiyyətini daima artırmalıyıq. Nəinki ölkələrimiz arasında, xalqlarımız arasında da münasibətlərin səviyyəsi yüksəlməlidir. Əminəm ki, biz hamımız bunun üçün ciddi səylər göstərməyə hazırıq".

Paşinyanın Ayazma kəndindəki çıxışının sətiraltı mənası əslində Samtsxe-Cavaxetiyadakı ermənilərin hər növ separatçı fəaliyyətlərini daha da genişləndirməkdən ibarət olub.
Ermənilər bu yolla bir qayda olaraq gürcülərin yurdunu, dilini, mədəniyyətini və soyadlarını mənimsəməyə, özlərini isə Gürcüstanın "etnik əhalisi" kimi qələmə verməyə çalışırlar. Burada əsas məqsəd isə Gürcüstanın hesabına heç bir əsası olmayan "böyük Ermənistan"ı yaratmaqdan ibarətdir. Təsadüfi deyildir ki, 2016-cı ilin aprelində gürcülərlə ermənilər arasında kütləvi dava-dalaş baş verib. Bu hadisə zamanı ermənilər açıq şəkildə məqsədlərini bəyan edərək bildiriblər ki, guya "Samtsxe Cavaxetiya onların torpağıdır, gürcülər isə burada qonaqdırlar". Həmin günü ermənilərin böyük bir qrupu ənənəvi olaraq məşəl yürüşünü keçirməyə hazırlaşıblar. Bu zaman erməni mediası ermənilərə haqq qazandıraraq baş verən hadisədə gürcüləri günahlandırırdı. 2016-cı il aprelin 24-dəki yürüş zamanı ermənilər yolda bir qrup gənc gürcülərlə rastlaşıb və onları aqressiv şəkildə ittiham etməyə başlayıblar ki, "nəyə görə gürcülər "erməni soyqırımı"nı tanımır, ermənilərlə birlikdə kədərlənmir və erməniləri Qarabağda dəstəkləmirlər?" Gürcülər isə cavabında ermənilərə, "əbədi qurban" rolunu oynamaqdan imtina etmələrini tövsiyə ediblər. Gürcülərdən biri qeyd etmişdir ki, belə tədbirlər küçədə yox, kilsədə keçirilməlidir. Ermənilər isə cavablarında bildirmişlər: "Cavaxetiya bizim torpağımızdır, siz isə burada qonaqsınız. Bizə nə edəcəyimizi göstərməyin". Daha sonra kütləvi dava-dalaş, ermənilərdən birinin gürcünü vurmasına görə başlamışdır. Erməni KİV-ləri bu hadisədə ermənilərə bəraət qazandıraraq guya "gürcülərin sərxoş vəziyyətdə olduqlarını" qələmə vermişlər ki, bu da həqiqətə uyğun deyildir.Digər bir hadisəyə nəzər salsaq görərik ki, 2017-ci ilin sentyabrında Samtsxe-Cavaxetiyada ermənilərlə polislər arasında qarşıdurma baş verib. Münaqişəyə səbəb isə sentyabrın 30-da Kumurdo kəndində təmirə görə nəzarət altında olan X əsrə aid gürcü kilsəsinin ərazisində ermənilərin ənənəvi daş xaçlarını – xaçkarı qoymağa cəhd göstərmələri olub. Mühafizə polisləri onların əraziyə daxil olmasına icazə verməyiblər. Nəticədə ermənilər polislərə fiziki müqavimət göstərərək onları daşa basıblar. Hadisə zamanı bir neçə polis ciddi xəsarət alaraq xəstəxanaya yerləşdirilmişdir ki, bu da ermənilərin necə vəhşi bir xalq olduğunu bir daha sübut edir.Hadisələrin gedişindən belə qənaətə gəlmək olar ki, ermənilər Paşinyanın məkrli siyasətinə xidmət edərək alət rolunu yerinə yetirirlər. Ermənilərin xəstə təxəyyülünə görə guya "qonşu dövlətlərin əraziləri, maddi-mədəniyyət abidələri və mədəni irsləri tarixən onlara məxsus olmuşdur". Ona görə də bu gün ermənilər işğal etdikləri ərazilərin adlarını dəyişərək, Samtsxe-Cavaxetiyanı "Cavaxk", Dağlıq Qarabağı isə "Arsax" kimi qələmə verirlər ki, bunların da heç bir tarixi əsası yoxdur. Ermənistan beynəlxalq ictimai rəyi çaşdırmağa və yalan üzərində tarix qurmağa çalışır".

**A. Miriyev**
**Palitra. - 2020. - 13 mart. - S.8.**

## Sumqayıt hadisəsi erməni təcavüzkarlarına bəraət qazandırma vasitəsi idi

26-28 fevral 1988-ci il tarixində Sumqayıt iğtişaşları nəticəsində iyirmi altı erməni və azərbaycanlı öldürüldü. Qeyd etmək lazımdır ki, bu hadisələrin fəal iştirakçılarından biri ermənilərin qətli və onlara qarşı zorakılıqda, ermənilərin yaşadığı rayonlardakı qırğınlarda bilavasitə iştirak etmiş Sumqayıt sakini olan milliyyətcə erməni Eduard Qriqoryan idi. Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət şöbəsinin 22 dekabr 1989-cu il tarixli qərarı ilə Qriqoryan 12 il həbs cəzasına məhkum edildi. Məhkəmə Qriqoryanın iğtişaşlar və qırğınların təşkilatçılarından biri olması barədə qərar qəbul etdi. Şahidlər və hadisə qurbanlarının ifadələri göstərir ki, Qriqoryanda ermənilərin yaşadığı mənzillərin siyahısı var idi və o, digər üç erməni ilə birlikdə ermənilərə qarşı özünün şəxsən iştirakı ilə intiqam aktlarına çağırırdı. Onun qurbanları (hamısı erməni) Qriqoryanı zorakılığın təşkilatçılarından və fəal iştirakçılarından biri kimi tanımışlar. Əslində erməni rəhbərliyinə geniş anti-Azərbaycan kampaniyasına başlama və Azərbaycana qarşı təcavüzkar addımlara bəraət qazandırma vasitəsi kimi zəruri olan Sumqayıt hadisələri əvvəlcədən planlaşdırılmış və hazırlanmışdı.

1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başlanır. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürürdülər. Mitinqlərin üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid binası (XX əsrin əvvələrində isə şəhərdə 8 məscid olmuşdur) və azərbaycanlı orta məktəbi, C.Cabbarlı adına İrəvan Azərbaycanlı Dram Teatrının ləvazimatı yandırıldı. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vurdular. İrəvanda bütün bunlar törədilən zaman Sumqayıt faciəsi hələ hazırlanırdı.

"Sumqayıt qırğınları" proqramının icracılarından ən fəalının 1959-cu ildə anadan olmuş Eduard Robertoviç Qriqoryan adında ermənin olması (öldürülən 26 ermənidən 6 nəfəri onun payına düşür), hadisədən 10 gün əvvəl Sumqayıtın bütün əmanət kassalarından ermənilərin öz əmanətlərini kütləvi şəkildə götürmələri, qırğınların videolentə alınması üçün erməni operatorlarının əvvəlcədən hadisələrin planlı şəkildə törədiləcəyi yerlərdə özlərinə xəlvəti çəkiliş mövqeyi seçmələri, iki gündən sonra həmin lentlərin montaj edilib bütün dünyanı dolaşdırılması, "Sumqayıt qurbanları"nın xatirəsini "əbədiləşdirmək" üçün əvvəlcədən hazırlanmış abidənin dərhal Xankəndində qoyulması və bu kimi faktlar sübut edir ki, bütün bunlar erməniləri, eləcə də dünya ictimaiyyətini Azərbaycan xalqına qarşı ayağa qaldırmaq, onun "vəhşi" obrazını yaratmaq məqsədini güdmüşdür. Sumqayıt qırğınlarının fəal təşkilatçılarından erməni Ohanyanın, Samoylov və Pavlovskinin adları isə uzun müddət mətbuatdan gizli saxlanmışdı. 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər ölüb. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı olub. Bu hadisələr də SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərin özləri ilə birgə təşkil etdiyi və həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Sumqayıtda bu hadisəni təşkil etmək üçün seçilmiş şəxs də erməni – iki dəfə məhkum olunmuş Eduard Qriqoryan idi. Baxmayaraq ki, Sumqayıt hadisələrinin təşkilatçısı kimi azərbaycanlı Əhməd Əhmədov güllələnib, amma şahid ifadələri əsl günahkarın əslində erməni əsilli Eduard Qriqoryan olduğunu sübut edir.

Sumqayıt faciəsi zamanı yüzlərlə azərbaycanlı ailəsinin öz həyatlarını təhlükə qarşısında qoyaraq, erməni qonşularını qəzəblənmiş kütlənin təhlükəsindən xilas etmələri haqqında mətbuatda çox yazılıb.

Bu sözlər aydın sübut edir ki, Sumqayıt faciəsi ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur. Ermənistanın tanınmış siyasi xadimlərindən Paruyr Ayrikyan da etiraf edirdi ki, "Sumqayıt hadisələri Moskva tərəfindən təşkil olunmuşdu".

Bu hadisələrin Moskva tərəfindən törədilməsini SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin o vaxtkı sədri N.Kryuçkov da etiraf etmişdir.

Bakının 30 km-də yerləşən Sumqayıt şəhəri təsadüfən seçilməmişdi. Həmin ərəfədə Ermənistandan zorla çıxarılmış 41 mindən artıq Azərbaycan türklərinin əksəriyyəti məhz Sumqayıtda məskunlaşmışdı və ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərə görə qəzəb içərisində idilər. Hələ Sovet dövründə də "ölü zona" adlandırılan şəhərin yerli əhalisi də yoxsulluq və səfalət ucbatından radikal addımlar atmağa meylli idi. Ona görə də burada geniş miqyaslı iğtişaşlar törətmək mümkün oldu. Bir gün davam edən ixtişaşlar nəticəsində erməni evləri dağıdıldı, onlarla adam yaralandı, 32 nəfər, o cümlədən, 26 erməni, 5 Azərbaycan türkü, 1 ləzgi öldürüldü. O da məlumdur ki, öldürülən ermənilərin, demək olar ki, hamısı erməni terror fondlarına pul keçirməkdən imtina edənlər idi.

Zərərçəkmiş Sumqayıt sakini L.Meclumyan bildirirdi ki, "Qriqoryan mənim mənzilimə daxil oldu, sındırdığı stulun ayaqları ilə xəstə anama zərbə endirdi, bu vaxt mən bir neçə dəfə müqavimət göstərməyə çalışdım, ancaq qadın olduğuma görə gücüm çatmadı, o, məni yerə yıxaraq, istədiyini etməyə başladı". Hadisələrdə iştirak etmiş Nəcəfov soyadlı bir gənc isə istintaqa bildirirdi ki, "Qriqoryan tərəfindən təşkil olunmuş dəstə Emma adlı erməni qadının 512 saylı evinə soxuldu, dərhal onu lüt soyundurdular və Edik Qriqoryan onu bu vəziyyətdə küçəyə çıxartmağı təklif etdi, sonra onun iştirakı ilə Emma vəhşicəsinə öldürüldü".

İstintaq materiallarının başqa bir yerində göstərilir ki, "E.Qriqoryan öz dəstəsi ilə birinci mikrorayonda M.Petrosyanın mənzilinə daxil olmuş, müqavimət göstərmək istəyən mənzil sahibinə başından zərbə endirərək halsız vəziyyətə salmışdır". E.Qriqoryan Sumqayıt hadisələri zamanı 5 ermənini şəxsən özü öldürmüş, 8 erməni qadınını zorlamışdır. Bu cür faktlar çoxdur. Erməni təşkilatları bu cür cinayətlər törətmiş E.Qriqoryanı ağır cəzadan da qurtara bildilər. Məhkəmə Azərbaycanlı Əhməd Əhmədov haqda ölüm hökmü çıxardı və hökm dərhal yerinə yetirildi. E.Qriqoryana isə yalnız 12 il iş verildi və bir neçə ildən sonra azadlığa buraxıldı. Bu hadisələr məşhur deyimi bir daha təsdiq etdi: "ermənilər üçün ən yaxşı erməni ölü ermənidir". Ermənilər ölmüş və yaxud öldürülmüş həmtayfalarından həmişə məharətlə istifadə edirdilər. Ermənilər Sumqayıt hadisələrindən öz məkrli niyyətləri üçün yararlanmaq məqsədi güdürdülər. Ona görə də bu hadisələr haqda dərhal dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa, antiazərbaycan əhvalruhiyəsi yaratmağa başladılar. Digər tərəfdən, erməni təşkilatları Azərbaycan və Ermənistan arasında qarşıdurmaya dönməz xarakter verməyə, münasibətləri daha da kəskinləşdirməyə, dinc nizamlama perspektivlərini heçə endirməyə çalışırdılar. Ermənilər qanlı terror aktlarını davam etdirirdilər.

Dövlət ittihamçısı Qriqoryan üçün ömürlük iş istəsə də bu qəbul olunmayıb. Sumqayıtda keçirilmiş məhkəmə proseslərində azərbaycanlılara qarşı qərəz nümayiş etdirilib. Dövlət ittihamçısının xəstə və hadisələrdə heç bir günahı olmayan Nəcəf Nəcəfalıyev haqda həbs qəti-imkan tədbirin dəyişdirilməsi ilə bağlı təklifi də qəbul olunmayıb və o prosesin gedişində vəfat edib. Digər təqsirləndirilən şəxs Əhməd Əhmədov isə Moskvada keçirilmiş məhkəmənin qərarı ilə güllələnməyə məhkum edilib. Əhməd Əhmədovun hadisələrin əsas təşkilatçısı olduğunu sübuta yetirmək üçün istintaqçılar həmin gün əynində əslində boz kostyum olmuş Əhmədovdan guya üzərində qan ləkələri olan qara kostyumda olması ilə bağlı ifadə alıblar və bu dəlil kimi məhkəmədə ortaya çıxarılıb. Sumqayıtlılar da Əhməd Əhmədovun cinayətkar olmadığına çoxdan inanır. Onun yaşadığı həyətdə qurulmuş xatirə bulağı xalqın artıq Ə.Əhmədova bəraət verdiyini göstərir.

SSRİ DTK-sının himayə etdiyi həmin qruplar şəhərin müxtəlif yerlərində qətliamlar törədib. Erməni milliyyətindən olan 26 nəfərin qətlə yetirilməsini məhz bu dəstələr həyata keçirib. Şəhərə yeridilən general Krayevin rəhbərlik etdiyi ordu hissələri isə bunları kənardan izlədikdən sonra, fevralın 29-da hadisələrə müdaxilə edib. Nəticədə 6 azərbaycanlı tankların tırtılları altında qalaraq şəhid olub, 400 nəfər xəsarət alıb, 200 mənzil talan edilib, 50 mədəni-məişət obyekti dağıdılıb, 40-dan çox avtomobil yararsız hala salınıb. Martın 1-dən Sumqayıtda komendant saatı tətbiq olundu.

Azərbaycanın o zamankı rəhbərliyi Sumqayıt hadisələrinin səbəblərini araşdıran istintaq qrupunun ermənilərin xeyrinə işləməsini təkcə susmaqla müşayiət etməyib, ədalətsiz qərara imza atıb. Hadisələrin səbəbini araşdıran keçmiş SSRİ Prokurorluğu və DTK-nın nümayəndələrindən ibarət istintaq qrupu baş verənləri bütövlükdə azərbaycanlıların üzərinə qoymaqla əsl həqiqəti ört-basdır edib. Təəssüf ki, həmin istintaq qrupuna daxil olan Azərbaycanın hüquq-mühafizə orqanlarının nümayəndələri haqsızlığa qarşı çıxmaq əvəzinə günahsız insanların mühakiməsində iştirak ediblər. Nəticədə 3 minə yaxın günahsız Sumqayıt sakini zindanlara doldurulub. Onlardan 400-ü inzibati məsuliyyətə cəlb edilib, böyük bir qismi rüşvət verməklə canını qurtarıb, 94 nəfər barəsində isə cinayət işi açılıb.

İstintaq dövründə zorla müttəhim elan edilmiş, ikinci qrup əlil, insulindən asılı yaşayan Elçin Güləliyev Bayıl türməsində müəmmalı şəkildə öldürülmüşdür. Onun işinə məhkəmə baxışı zamanı günahsızlığı üzə çıxmışdır. Ziyalı ailədən olan Taleh İsmayılova isə 15 il iş kəsilmiş, cəzasını "siyasi məhbus" kimi çəkmək üçün Tbilisiyə göndərilmiş, bir ildən sonra meyiti gəlmişdiir.Digər azyaşlı Azər Babayev isə ömürlük yataq xəstəsi olmuşdur.

**Vahid Ömərov,**

**“Səs” qəzeti. - 2020. - 15 iyul. - S.15.**